Ana Kuprava-Qoqoladze, Giorgi Avtandilaşvili

# BIZIM GÜRCÜSTAN

# VI SINIF

## Müəllimin kitabı

Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman
Nazirliyi tərəfindən 2018-ci ildə qriflənmişdir

"Klio" nəşriyyatı

Ana Kuprava-Qoqoladze, Giorgi Avtandilaşvili

BIZIM GÜRCÜSTAN
VI sinif müəllimin kitabı

**Seriya redaktorları** Elene Medzmariaşvili

**Tərcümə edən** Emin Mahmudov
**Korrektor** Ceyran Ağayeva
**Kompüter yığıcısı** Sona Xudiyeva

© "Klio" nəşriyyatı, 2018
© Elene Medzmariaşvili, Ana Kuprava-Qoqoladze, Giorgi Avtandilaşvili,2018
Bütün hüquqlar qorunur

ISBN 978-99940-902-1-1

"Klio" nəşriyyatı MMC
Ağmaşenebeli pr. #181-2,
Tbilisi, 0112
tel.: (+995 32) 234 04 30
E-mail: book@klio.ge
www.klio.ge

MÜNDƏRİCAT


1. Dərsliklər seriyasının konsepsiyası..............................................4

2. Dərsliyin strukturu ...................................................................5

3. Metodik tövsiyələr......................................................................7

4. Dərsin planlaşdırılması ..............................................................12

5. V-VI sinif standartları .................................................................17

6. Məzmunun Milli Tədris Planı ilə uyğunluğu ...............................21

7. Qiymətləndirmə .........................................................................25

8. Saat bölgüsü ..............................................................................26

9. Qiymətləndirmə rubrikaları........................................................28

10. Dərs ssenariləri və əlavə məlumat............................................33

11. Yekun tapşırıqlar – Nə bilirəm və nə bacarıram
qiymətləndirmə rubrikləri .......................................................72

12. Əlavə alətlər ..............................................................................83

13. Test tapşırıqları nümunələri.......................................................85

14. Resurslar....................................................................................87

# 1. DƏRSLIKLƏR SERIYASININ KONSEPSIYASI

**Giriş**

"Bizim Gürcüstan" dərsliyi ibtidai V-VI siniflərdə, ictimai elmlərin standartı ilə müəyyənləşdirilmiş, eyni adlı fənn çərçivəsində, Gürcüstanın diyarlarının coğrafiyasının, tarixinin, etnoqrafik xüsusiyyətlərinin və müasir vəziyyətinin inteqrasiyalı tədrisini nəzərə tutur.

Şagirdin kitabının başlıca məqsədini təlim/tədris prosesində şagirddə öz ölkəsinin keçmişi və bu günü ilə bağlı marağını dərinləşdirmək, məlumat funksiyasını yerinə yetirmək, yəni şagirdə Gürcüstanın diyarlarının coğrafi, tarixi, etnoqrafik özünəməxsusluqları və müasir vəziyyəti barədə emal edilmiş, sahmanlanmış, ən yeni elmi nailiyyətlərə və tədqiqatlara əsaslanmış bilik vermək təşkil edir. Dərslik beynəlxalq fənlərarası standartları yerinə yetirir. O, diyarın coğrafiyasını tarixlə, mədəniyyətlə və etnoqrafiya ilə əlaqələndirəcək, şagirdin ictimai problemlərinin həllində öz töhfəsini vermək motivasiyasını yaradacaq, onun köməyi ilə şagird vətənsevər, yüksək ictimai təfəkkürə malik vətəndaş kimi formalaşacaqdır.

**Məqsədlər**

"Bizim Gürcüstan" dərsliyinin məqsədi şagirdə:

- Öz ölkəsini müxtəlif tərəflərdən göstərsin və təqdim eləsin;
- Onun keçmişi və bu günü ilə bağlı onda maraq oyatsın;
- Gürcüstanın rəngarəngliyinin onun sərvəti olduğunu izah etsin;
- Öz regionuna, ümumilikdə bütövlükdə ölkəsinə qarşı qayğıkeş münasibət formalaşdırsın;
- Cəmiyyətin və dövlətin üzvü kimi özünüdərkinə, mülki təfəkkürün inkişafına köməklik göstərsin;
- Vətəndaş cəmiyyətində yaşamaq üçün lazımi bacarıq və qabiliyyətləri inkişaf etdirsin;
- Həyat və sağlamlıq üçün təhlükəli vəziyyəti qiymətləndirmək və müvafiq davranış bacarığını inkişaf etdirsin;
- Şagirddə ictimai elmlərin öyrənilməsi üçün zəruri əsas bacarıq və qabiliyyətləri formalaşdırsın;
- Mənbələr, xəritələr, illüstrasiyalar, cədvəllər və diaqramlar üzərində işləmək bacarıq və qabiliyyətlərini formalaşdırsın;
- Tərbiyə edici funksiyanı yerinə yetirsin, yəni Gürcüstan regionlarının coğrafi, tarixi, etnoqrafik xüsusiyyətləri və müasir vəziyyətin öyrənilməsi təlim-tərbiyə vəzifələrini həyata keçirsin;
- Təlim/tədris prosesində müəllimin peşəkar inkişafına dəstək göstərmək;
- Təfəkkür əməliyyatlarını mənimsəmək, tədqiqat, həyati bacarıq və qabiliyyətlər, yaradıcı təfəkkür, özünüidarə kimi əsas bacarıq və qabiliyyətləri inkişaf etdirsin.

**Dərslik aşağıda verilmiş funksiyaları daşıyır:**

**1. Tədris prosesi ilə bağlı funksiya:**

- Bilik vermək;
- Bacarıq və qabiliyyətləri formalaşdırmaq və inkişaf etdirmək;
- Biliyin möhkəmləndirilməsi;
- Biliyin qiymətləndirilməsi.

**2. Gündəlik və peşəkar həyatla əlaqəli funksiya**

- Qazanılmış biliyin həyatda tətbiqi və inteqrasiyası;
- Referensiya (arayış kitabçası kimi istifadəsi mümkündür);
- Sosial-mədəni tərbiyə.

**3. Müəllimə aid edilmiş funksiya**

- Elmi və ümumi məlumat vermək;
- Peşəkarlığın yüksəldilməsi;
- Tədris prosesində və dərs keçən zaman köməkçi funksiya.

# 2. DƏRSLİYİN STRUKTURU

VI sinif “Bizim Gürcüstan” dərsliyi, giriş, səkkiz hissədən və 59 fəsildən ibarətdir. Hər bir fəslin yekun dərsinə “Nə bilirəm və nə bacarıram” əlavə edilmişdir, hansı ki, bir və ya iki dərs üçün nəzərdə tutulmuşdur. Bir fəsil bir dərsə uyğun gəlir, yəni, məktəb dərsliyində bir fəsildə verilmiş material “Bizim Gürcüstan”ın bir dərsi üçün ayrılmışdır, altı fəsli çıxmaqla, hansılar ki, iki dərsi nəzərdə tutur. Beləliklə, dərslikdə verilmiş material, səkkiz saatdan dərsdən başqa, 68 dərs üçün nəzərdə tutulmuşdur. Yekun dərs “Nə bilirəm və nə bacarıram” var, hansı ki, bütövlükdə tədrisin interaktiv metodunun istifadəsini nəzərdə tutur.

Tədris proqramına görə, cari fənnə həftədə üç saat, ildə 105 saat ayrılır. BU 105 saatın qalan saatları ehtiyat saatı kimi götürülür, hansını ki, müəllim giriş, ümumiləşdirmə və yekun dərslərdə, məktəb mühazirələrində, seminarlarda, təcrübə, ekskursiya, teatr tamaşasını həyata keçirmək və s. üçün istifadə edə bilər.

Hər br fəsil üç hissədən ibarətdir: 1. Açar sual; 2. Mətn; 3. İş hissəsi: suallar və tapşırıqlar.

**1. Açar sual.** Burada əsas sual verilmişdir, hansı ki, şagirdin diqqətinin cəmlənməsinə və fəsildə verilmiş problem və məsələ ilə maraqlanmasına kömək göstərir.

**2. Mətn.** Mətnin məqsədi: “açar suala ” cavabın verilməsindən ibarətdir. Mətnin əsas tərkib hissələrinə aiddir: a) Müəllif mətni; b) Mənbələr (onlara əlavə edilən suallar və məşğələlər); c) əyani vasitələr: illüstrasiyalar, xəritələr, cədvəllər, sxemlər, diaqramlar və s (onlara əlavə edilmiş suallar və məşğələlər).

Mənbələri bu cür qruplaşdıra bilərik: 1. Tematik dərinləşdirilmiş hissə. Orada müəllif mətnində qısaca verilmiş məsələlər önə sürülmüşdür; 2. Təzadlı hissə. Orada elə məsələlər və hadisələr var ki, müəllifin mətnində onlara diqqət verilmir; 3. Bioqrafi və sosial-bioqrafi. Onların təyinatı şagirdin diqqətini şəxsiyyətə qarşı elə yönəltməkdən ibarətdir ki, tarixin təcəssüm etdirmə prinsipi önə çıxmasın və aşağıdakı məqsədə nail olunsun: tarixə, coğrafiyaya, şəxsiyyətə, insanın məişətinə maraq.

Mənbələr, fotolar, şəkillər, xəritələr və s., müəllifin mətnində verilmiş informasiyanı “iki dəfə artırır” və mətnin daha yaxşı qavranmasına kömək edir. Yuxarıda verilmiş əyani vasitələrlə, mətnin vizual “tərcüməsi” yolu ilə mətni təkrarlamaq və mətndə ixtisar edilmiş məsələləri yerinə qoymaq və ya tamam fərqli vizual forma ilə əlavə etmək mümkündür.

Dərslikdə verilmiş mənbələri, eləcə də mənbə şəklində verilmiş əyani vasitələri, müstəqil işin bir hissəsi kimi müzakirə etməliyik, hansının ki, “həll edilməsini”, “oxunması” və tətbiqini müəllim şagirdə öyrətməlidir. Müəllimin kitabında mənbələr və əyani vasitələr üzərində işləməklə bağlı bilavasitə tövsiyələr və məsləhətlər verilmişdir.

Dərsin tərkib hissələrindən biri “Daha çox eşit” rubrikasıdır. Rubrikanın məqsədi dərsin mövzusunu dərinləşdirmək təşkil edir. O, əsas mətndən ayrılmışdır və dörd növü var: maraqlı informasiya, tarixin vərəqləri, tarixi şəxsiyyətlər, miflər və əfsanələr və loqosunun rənginə görə fərqlənir. Ona həmçinin suallar və tapşırıqlar əlavə edilmişdir və əsas mətnin hissəsini təşkil eləyir.

Dərsə lüğət əlavə olunur və orada mətndə verilmiş sözün izahı verilir.

Hər hissənin sonunda yekun dərs “Nə bilirəm və nə bacararam” verilir, oradakı tapşırıqlar nəinki təkcə fəsil üzrə qazanılmış nəzəri biliyi, o cümlədən şagirdin praktiki bacarıq və qabiliyyətlərini yekunlaşdırır cəmləşdirir və dərinləşdirir. Yekun dərs başlığı da bunu vurğulayır.

Mətnin məzmunun seçilməsi və tərtibatını müəyyənləşdirən meyar **aparıcı mövzular** idi. Aparıcı mövzular elə meyarları nəzərdə tutur, hansılar ki, zaman və məkan çərçivəsini keçir və coğrafi, tarixi, etnoqrafik və mülki təhsilin əsas tendensiyalarını və proseslərini əhatə edir. Məhz bu aparıcı mövzular vasitəsilə məsələnin və problemin qoyulması baş verir. Onlar bir növ dayaq, əsası təşkil edirlər, hansının ki, üzərində mətn qurulur.

Belə aparıcı mövzulara daxildir: **Gürcüstanın regionları: Kartli, Şərqi Gürcüstanın dağlıq hissəsi, Sameqrelo, Acarıstan, Kaxeti, Quriya, Svaneti, Raca-Leçxumi, Abxaziya, Samsxe-Cavaxeti. Eləcə də Gürcüstanın paytaxtı – Tbilisi və dövlət –Bizim Gürcüstan.**

Beşinci sinif dərsliyinə beş region daxil edilmişdir: Kartli, İmereti, Sameqrelo, Svaneti və Acarıstan. Dərslik giriş hissə ilə başlayır, hansında ki, öyrəniləcək məsələlər şagirdə zaman və məkanda özünü təyinetmə imkanını verir.

Aparıcı mövzular tədqiq ediləcək məsələərin və sahələrin ayrılmasını asanlaşdırır və eyni zamanda yekcins çərçivə yaradır, hansı ki, materialın çoxluğuna nəzarət edir və onu məhdudlaşdırır. Aparıcı mövzular fənlərin inteqrasiyası imkanını verir.

Mətnin dili sadə, üslubu –nəqledici-təsviredicidir, əcnəbi sözlərlə yüklənməmişdir.

**3. İş hissəsi: suallar və tapşırıqlar.** Dərsliyin bu hissəsinin məqsədi, fəslin öyrənilməsi nəticəsində qazanılmış biliyin, qabiliyyət və bacarıqların dərinləşdirilməsindən ibarətdir. Onlar tədris prosesinə yönəlmişdir və işləmə üzrə rəngarəngliyi tələb edir. Məsələn, tapşırıqlar bu cür tipdədir: göstəricilərin toplanması, təşkili, təhlili və interpretasiyası; xəritələr, cədvəllər və diaqramların tərtibi, oxunması və məlumatın tətbiqi; zaman və məkanda istiqamətlənmə; illüstrasiyalar və fotoların “oxunması” və onlardan məlumatın alınması; sorğuların keçirilməsi; kiçik ölçülü inşanın yazılması; diskussiya və dialoqun yönəldilməsi; müxtəlif “handout” (paylanma materialı) üzərində iş; rolların paylaşdırılması ilə oyunlar (səhnələşdirmə); rəsm, rəsmxətt və s.

İşçi hissə qrup və fərdi iş üçün nəzərdə tutulub.

Dərsliyin mətni və işçi hissənin bir-biri ilə uyğunluğunun böyük əhəmiyyəti var. İşçi hissədə, əsasən sual olmur, ona cavab mətndə verilmir. İşçi hissədə elə suallar var ki, onu ancaq biliyə əsaslanaraq, cavablandırmaq olar. Təsviredici xarakterli suallar da var, bəziləri isə şagirdin fantaziyasına uyğunlaşdırılmışdır.

İşçi hissə bacarıq və qabiliyyətlərin formalaşması və inkişafına kömək edir.

Proporsiyanın qorunmasının böyük əhəmiyyəti var. Dərslikdə proporsiya var: a) Məlumat, məşğələlər və praktiki tapşırıqlar arasında; b) İnformasiya və qabiliyyət və bacarıqlar arasında.

**4.Tədris materialının bölünməsi, dərsliyin Milli Tədris Planı ilə uyğunluğu.**

Dərsliyin məzmunu tədris proqramına əsaslanaraq və yeni dövlət təhsil standartının tələblərini nəzərə alaraq, işlənib hazırlandı. Fəsillərin başlıqları proqrama daxil olmuş tədris mövzularına cavab verir. Fənlərin inteqrasiyası məqsədilə, dərslik fərqli fənləri əlaqələndirən mövzuları ehtiva edir.

Dərsliyin bütün əsas tərkib hissələri materialın mənimsənməsini və maraqlı, fərqli tipdə dərslərin keçirilməsini dəstəkləyir. Buna görə də müəllim çalışmalıdır ki, iş prosesində -dərsdə onların inteqrasiyasına nail olsunlar. Arzuolunandır ki, müəllim dərsliyin tərkin hissələrini emal etsin və dərsdə tətbiq eləsin. Bu işdə pedaqoqa müəllimin kitabı kömək edəcək. Dərsliyin bütün tərkib hissələri şagirdə yönəlmişdir və şagirdin yaş və psixoloji xüsusiyyətlərini nəzərə alır.

**Müəllimin kitabının məqsədi:**

1. Müəllimə hər bir dərsi hazırlamağa və keçirməyə kömək göstərsin;
2. Əlavə məlumat versin;
3. Müəllimin peşəkarlığının yüksəldilməsini dəstəkləsin;

5. Tədris materialının təqdimat fazasının izahatı, müəllim dərsə necə hazırlanmalıdır?

Hər dərsə müəllim əsaslı şəkildə hazırlanmalıdır, xüsusilə:

- Dərsi planlaşdırsın, ssenarisini tərtib eləsin,
- Bu dərs üçün hansı resursların lazım olduğunu və
- Hər bir aktivliyi zaman çərçivəsində necə bölüşdürəcəyini müəyyənləşdirsin.

# 3. METODİK TÖVSİYƏLƏR

**Təlim/tədris üzrə interaktiv metodların tətbiqi**

Müasir dünya təhsil siyasətinin başlıca istiqamətini şagirdlərə yönəlmiş təhsil təşkil edir. Müvafiq olaraq, arzuolunandır ki, tədris metodikası da şagirdə yönəlmiş olsun, yəni interaktiv olsun. İnteraktiv metodika isə şagirdlərə yönəlmişdir, burada şagird tədris prosesinin mərkəzi fiqurudur və bütün təhsil əməliyyatlarında aktiv iştirak edir – bunun üçün yeni bilik axtarır və ondan istifadə edir.

Bizim təklif etdiyimiz nümunə dərslər, əsasən, aktiv və interaktiv metodlardan istifadə edilməklə tərtib olunmuşdur. Aşağıda müəllimlərə metodların detallı təsvirini təklif edirik ki, onlardan effektiv surətdə istifadə edə bilsinlər.

**I. "Əqli hücum"**

"Əqli hücum" interaktiv metodlardan biridir. Əsas məqsədi ideyanın sərbəst ifadəsi yolu ilə problemi siniflə birgə həll etməkdən ibarətdir.

"Əqli hücum" yaradıcı təfəkkürün inkişafına yardım edir. Şagirdlər digərlərini dinləməyi öyrənirlər. "Əqli hücum" müstəqil keçirilə bilər və ya başqa tapşırığın bir hissəsini təşkil edə bilər.

Müəllim problemi əvvəlcədən seçir və sual şəklində onu aydın formalaşdırır. Bundan sonra "Əqli hücumun" birinci mərhələsi başlayır, bu, ideyalar bankının yaradılması (yığılması) mərhələsi də adlanır. Bu zaman aşağıdakı qaydalara əməl edilməlidir:

1. İştirakçılar mülahizələrini söyləyən zaman mülahizələrin tənqidi, mübahisə və ya qiymətləndirmə yolverilməzdir;
2. İştirakçılar ideyalarını könüllü şəkildə səsləndirirlər, müəllimin istəyinə görə yox;
3. Hər bir şagird bir və ya bir neçə mülahizə söyləyə bilər. Mülahizələr orijinal da ola bilər, başqasının ideyasının təkrarı da;
4. Bütün ideyalar (qəbul edilməz ideyalar belə) lövhədə əks olunmalıdır (yazılmalıdır);
5. İdeyaların söylənməsi tezliyi azaldıqda, müəllim şagirdlərə bir daha fikirləşmək imkanı verir;
6. Vaxt əvvəlcədən də müəyyənləşdirilə bilər, yaxud da müəllim zəruri halda ideya təşəbbüsünü prosesini dayandıra bilər.

İkinci mərhələ, yəni ideyaların qiymətləndirilməsi:

1. İrəli sürülmüş mülahizələrin xülasəsi:
2. Əgər bir neçə mülahizə oxşardırsa onların ümumiləşdirilməsi, birləşdirməsi həyata keçirilir;
3. Şagirdlərdən xahiş edilir ki, ümumiləşdirilmiş ideyaların içindən ən dəyərli hesab etdikləri 2-3 ideya seçsinlər; onları əhəmiyyətinə görə sıralasınlar (ən mühüm ideya birinci yerdə yazılır və s.).
4. Sonda qoyulmuş problemin həlli üçün daha əhəmiyyətli ideyalar seçilir.

“Əqli yürüşdən” istifadə nəinki yaradıcı təfəkkürün inkişafına, eləcə də fərqli düşüncəyə dözümlülüyün və hörmətin formalaşmasına zəmin yaradır, şagirdlərdə əməkdaşlıq və münasibət qurmaq qabiliyyət və bacarıqlarını inkişaf etdirir.

**II. Sinif diskussiyası**

Diskussiya maariflənmə fəaliyyətinin əsas formalarından biridir, hansı ki, şagirdlərin təşəbbüsünə stimul verir, onlarda tənqidi düşüncəni inkişaf etdirir.

Diskussiya zamanı baş verir:

– iştirakçılar arasında məlumat mübadiləsi, eyni bir məsələ ilə bağlı fərqli yanaşmaların axtarılması, müxtəlif nöqteyi-nəzərlərin (çox zaman bir-birini təkzib edən) mövcudluğu, ümumi fikrin və ya qərarın qəbul edilməsi üçün qrup razılaşmasının əldə edilməsi.

Diskussiya metodu il tədris, ənənəvi metoddan fərqli olaraq, imkan yaradır ki, görək, hər bir müddəanın çoxlu mütərəddid tərəfi vardır və bir çox vasitə ilə nəticə çıxarmaq mümkündür.

Sinifdə açıq diskussiya keçirmək üçün, qarşılıqlı hörmət və etimad mühiti yaradılmalıdır. "Təhlükəsiz" mühitinin yaradılması isə müəllim tərəfindən öncədən işin görülməsini nəzərdə tutur, hansının ki, məqsədi sinifdə diskussiya davranışları və münasibət normalarını formalaşdırmaqdan ibarətdir. Bu ibtidai siniflərdə daha effektivdir, çünki məhz o dövrdə uşaqlarda davranış standartları formalaşır.

Diskussiya qaydalarının öyrənilməsi və bu metodun tez-tez istifadə edilməsi aşağıda sadalanmış bəzi bacarıq və qabiliyyətlərin formalaşmasına şərait yaradır

– Başqasını diqqətli dinləməyi, öz fikrini formalaşdırmaq və onu əsaslandırmaq, mühakimə, tənqidi analiz və başqalarının fikirlərini qiymətləndirmək.

Yekun olaraq, fərqli olsa belə, başqasının fikrinə hörmətlə yanaşmaq və güzəştli münasibət formalaşır ki, bu da demokratik cəmiyyətin vətəndaşı üçün mühüm amildir.

Diskussiya keçirmək üçün lazımdır: Sual vermək, problemi təqdim etmək və ya konkret vəziyyətin təsviri; diskussiya qaydalarına riayət etmək, şagirdlərin həvəsləndirilməsi, dəstəklənməsi.

Bizim dərslikdə demək olar ki, bütün dərslər sinif diskussiyasını nəzərdə tutur,

**"Dairəvi masa"** – şagirdlərin kiçik qrupu (4-5 nəfər) bir-biri ilə və siniflə fikir mübadiləsi aparır.

**"Forum"** – bütün sinif bərabər imkan daxilində fikir və ideya mübadiləsi həyata keçirir.

**"Debatlar"** – əvvəlcədən planlaşdırılmış çıxışlar əsasında qurulur. Nümayəndələr qruplar üzrə seçilməlidir. Hər bir qrupun iştirakçısı növbə ilə mübahisədə iştirak edir.

Diskussiyadan sonra müəllim əldə edilmiş nəticələri bir daha ümumiləşdirir və şagirdlərlə bərabər təkrarlayır. Ən yaxşı halda, nəticələri iştirakçıların özü müəyyən etməlidir.

Sinif diskussiyası müəllimlə sinif və yaxud şagirdlər qrupu arasında təşkil edilə bilər.

**Sinif diskussiyasının təşkili eyni zamanda bir neçə məqsədə xidmət edir:**

- Şagirdlərin fəallaşmasına
- Şagirdlərdə tənqidi təfəkkürün formalaşmasına
- Tədris materialının mənimsənməsinin dəstəklənməsinə
- Şagirdlərdə kommunikasiya bacarığının inkişaf etdirilməsinə
- Diskussiya həm yeni, həm də keçilmiş materiala əsaslana bilər.
- Arzu olunandır ki, diskussiyanı şagirdin və ya müəllimin təklifi ilə təqdimatdan sonra tətbiq edək.
- Diskussiyanın düzgün idarə edilməsində sinifdə masaların düzülüşü də əhəmiyyət kəsb edir. Masaların dairəvi və ya dördkünc formada düzülüşü arzu ediləndir.

**Diskussiyanın idarə edən zaman aşağıdakıları nəzərə almalıyıq:**

- Diskussiya konkret məqsədə və sahəyə fokuslanmaldır – müəllim diskussiyanın məqsədlərini aydın şəkildə izah etməli və lövhədə yazmalıdır.
- Diskussiya qaydalarını işləyib hazırlamalıyıq (bir-birini dinləmə, vaxtın bölüşdürülməsi, reqlament).
- Zaman-zaman şagirdlərin mülahizə və ideyalarına reaksiya verməliyik, bu şagirdə öz dediklərini düşünməyə və dərk etməyə kömək edəcək.
- Uğurlu diskussiya üçün şagirdlərin bir-birlərinin fikirlərinə hörmət etmələri mühüm əhəmiyyət kəsb edir.
- Diskussiyanın sonunda bir növ yekunlaşdırma, analiz, məsələlərin sadalanması (hansı ki, diskussiya zamanı irəli sürülmüşdür), prosesin qiymətləndiriməsi (nə düzəldi, necə düzəldi) həyata keçirilməlidir. Sonradan nəyə düzəliş edilməlidir məsələsini vurğulamaq da vacibdir.

Diskussiya şagirdlərdə mühakimə, tənqidi təfəkkür və problemi həll etmək bacarığının inkişafına dəstək verir. Şagirdlərdə fikirlərini şifahi, rabitəli ifadə etmək və qərar qəbuletmə, mübahisəli məsələləri həll etmək və alternativ qərarlar axtarmaq bacarıq və qabiliyyətləri çalışdırır. Diskussiya zamanı şagirdlərdən arqumentli mülahizə, qərar qəbuletmə, diskussiya qaydalarına riayət eləmək tələb olunur. Diskussiyanın əsas məqsədi, qrupda müzakirə ediləcək məsələ haqqında biliyini nümayiş etdirmək və problemin həllində bu biliyin tətbiqinə dəstək göstərməkdir.

Diskussiya qeyri-müəyyən sayda cavablar meydana gətirir və bir mülahizəni tələb etmir. Əgər verilmiş sualın ardınca başqa sual gəlirsə, nə zaman ki, şagird fikrində onun üçün maraqlı mövzunu fırlayırsa və cavab tapmağa çalışırsa, hər şeyi bilmək həvəsi müsbət intellektual qüvvə kimi formalaşır. Müşahidə zamanı bu metodun tətbiqi üzrə nöqsanlar da müəyyənləşdirildi. Xüsusilə, qaydalara riayət etməkdə, bütün fikirləri əsaslı şəkildə dinləməkdə çətinlik çəkirlər ki, bu da səs-küy yaradır və bütün uşaqlara dərs prosesinə fəal qoşulmaq imkanı verilmir.

**III. Süjetli-rollu oyunlar**

Oyun insanın, xüsusilə də uşaqların davranışının əsas aparıcı formalarından biridir. Tədris məqsədi ilə oyun isə mümkün reallığın qrup şəklində tədqiqat vasitəsi və bu yolla sosial təcrübəni qazanmaq deməkdir.

Alman psixoloqu Büller hesab edirdi ki, oyun fəaliyyətdir və onun həyata keçirilməsinin əsasında funksional zövq almaq dayanır. Yuxarıda deyilənlərdən irəli gələrək, izah edə bilərik ki, oyun mümkün həqiqətin qrup və dialoq şəklində tədqiqat metodudur. Oyun aktivliyinin əsasında həqiqətən də, müxtəlif növ həzzlər dayanıb, xüsusilə:

1. Həmkarla bilavasitə əlaqə zövqü;
2. Oyun situasiyalarının nəticələrinin sürətli aydınlaşdırılması həzzi;
3. Yarışdan əldə edilmiş məmnuniyyət həzzi.
4. Özünün və imkanlarının nümayişi həzzi;
5. Rola "girmə" həzzi və s.

Süjetli oyun – bu dərs zamanı oynanılmış kiçik bir tamaşadır, hansının ki, məqsədi uşaqlar üçün naməlum və seçilmiş hadisələrin onların oynanılması yolu canlandırılmasıdır.

Müəllim sinifdə müzakirə ediləcək (öyrəniləsi) mövzunu seçir və süjet qurur. Sonra uşaqlarla birlikdə bu rolları bölüşdürür və uşaq tamaşasının necə həyata keçirilməsi barədə mühakimə yürüdür.

Tamaşa zamanı ola bilər ki, müəllim uşaqları saxlasın və onlara suallar versin (məs., tamaşanın daha da yaxşılaşdırılması məqsədi ilə). Oyun başa çatdıqdan sonra bütün sinif tərəfindən onun müzakirəsi başlanılır.

Bu metod uşağa imkan verir ki, onun üçün tanış olmayan hadisələri daha yaxşı dərk etsin, öz hisslərini və fikirlərini daha aydın ifadə etsin, özünü qrup üzvü kimi hiss etsin, digər uşaqlarla əməkdaşlıq etsin (yəni iştirak etsin) və sair. Bununla yanaşı, oyun vasitəsilə uşaqların sosiallaşmasına (cəmiyyətdə mövcud sosial sınaqların mənimsənilməsi və qəbul edilməsi ) da nail olunacaq.

**1.** Simulyasiya oyunlarının tətbiqi tədris prosesini şagird üçün əyləncəli və maraqlı edir.
**2.** Simulyasiya real vəziyyətə bənzər, vəziyyətin yaradılmasını nəzərdə tutur.
**3.** Simulyasiya mövcud olanın və ya mövcud olacağın modelidir. Bir sözlə, simulyasiya reallığın oynanılmasıdır.
**4.** Simulyasiyalar insanların iştirakı və ya kompüter vasitəsilə oynanıla bilər.
**5.** İnsanın iştirakı ilə keçirilən simulyasiya rollu oyun adlanır.
**6.** Yaxşı olardı ki, bu strategiyanı mürəkkəb mövzuların işlənməsi zamanı tətbiq edək.
**7.** Oyundan fərqli olaraq, simulyasiyanın qalibə ehtiyacı yoxdur.
**8.** Rollu oyunlar 3 əsas hissədən ibarətdir: situasiya, rollu oyun, sinif diskussiyası.

Rollu oyunlar dəstək verir:

- Onun emosional səviyyədə mənimsənməsində məsələnin dərinliyinə varmağa (rollu oyun vasitəsilə şagird başqa bir fərdə çevrilir, rolunu ifa etdiyi həmin insanın xasiyyəti və motivasiyasına asanlıqla nail olur )
- Məsələnin uzunmüddətli yadda saxlanmasına, məlumatın qiymətləndirilməsi və təşkilinə, tədris prosesinə maksimal surətdə qoşulmaya və motivasiyanın, şagirdin kommunikasiya səviyyəsinin yüksəldilməsinə, analitik və praktiki təfəkkürün inkişafını və empatiyanın (şərik olma) inkişafına.

**9.** Simulyasiyanın təşkili üçün müəllim gərək:

- Şagirdləri improvizasiya üçün həvəsləndirsin, şagirdlərə ssenari və ya tamaşanın hansısa sadə eskizini hazırlatsın, rolları bölüşdürsün, tamaşanın qoyulması məğzini və məqsədini, bacardığı qədər, formalaşdırsın (yaxşı olardı ki, yazılı şəkildə), şagirdlərə sadə dekorasiyalar, əl işi resursları, sadə kostyumlar hazırlatsın.

**10.** Müsbət effektdən başqa, rollu oyunların keçirilməsi zamanı meydana çıxan bir neçə çətinlik də nəzərə alınmalıdır:

- Rollu oyunlar şagird və müəllim tərəfindən yaxşı inkişaf etmiş təxəyyül qabiliyyəti tələb edir!
- Rollu oyunlar zamanı müəllimlə şagird arasında aşırı qeyri-formal münasibət formalaşa bilər ki, bu da irəlidə dərsin keçirilməsi prosesinə mane olacaqdır.

**11.** Rollu oyunlar başa çatdıqdan sonrakı mərhələdə həyata keçirilmiş işin müzakirəsinin və qiymətləndirilməsinin keçirilməsi arzu ediləndir. Bunun üçün isə sinif diskussiyasının tətbiqi məqsədəuyğundur.

**Diskussiya** interaktiv tədrisin ən geniş yayılmış metodlarından biridir. Sinif diskussiyasının tətbiqi şagirdlərin tədris prosesinə qoşulmasını yüksəldir, onların sosial və şəxsiyyətlərarası bacarıqlarının inkişafına dəstək verir.

Əməkdaşlıq formasında tədris metodlarından Ciqsou metodu tətbiq edilir. Bu metod xüsusən iri həcmli mövzuların öyrənilməsi zaman effektivdir. Bu metod, bütün yaş qruplarında uğurla işləyir. Onlar əsas qrupların daxilində ayrı-ayrı mövzuları işləyə bilərlər, ekspertlər qrupunda mövzunun hissələrinin dərinləşdirilməsi baş verir, mövzunun hissələri yenidən əsas qruplara verilir və hər bir şagirdin fərdi biliyi yoxlanılır. Bu metodun tətbiqi ilə aydın olur ki, şagirdlərdə həm fərdi, həm də qrup qarşısında məsuliyyət hissi, eləcə də kommunikasiya bacarıqları inkişaf edir. Bunu müşahidə nəticəsində, təsbit olunur ki, nisbətən zəif şagirdlər mövzunun müəyyən hissəsini müstəqil işləməkdə çətinlik çəkirlər və belə əngəlli mühit ola bilər ki, onların fərdi nailiyyətini qiymətləndirmək üçün asan gəlmədi və metodu tətbiq etmək üçün böyük zaman tələb olunur.

**Təqdimat** tədris prosesinin ayrılmaz hissəsidir. Fənn standartının tələblərindən irəli gələrək, şagirdlər həmişə sinif qarşısında qısamüddətli və ya uzunmüddətli tədqiqatların nəticələrini təqdim edirlər, hansı ki, yalnız bir fənn çərçivəsində baş vermir. Təqdimat bacarığına malik olmaq nəinki təkcə məktəbdə yüksək qiymət almağın, eləcə də şəxsi imkanların üzə çıxarılmasının ilkin şərtidir. Bu metod ibtidai və baza pilləsinin şagirdləri üçün maraqlı, əyləncəli və tələbkardır, lakin müəyyənləşir ki, şagirdlər qeyri-verbal kommunikasiya elementlərini nəzərə almaqda, zaman limitinə əməl etməkdə, mövzu üzrə maraqlı materiallar tətbiq etməkdə çətinlik çəkir.

**Kiçik mühazirə** tez-tez tətbiq edilən metoddur. Bu qısa zaman kəsiyində şagirdlərə zəruri məlumat ötürmək vasitəsidir. Lakin bu metod şagirdlərə yalnız bilik verir (hansı ki, vacibdir) və bacarıqların inkişafına elə də imkan yaratmır. Bu zaman auditoriyanın diqqətini üzərində saxlamaq çox çətindir və mühazirə prosesində qiymətləndirmə mürəkkəb xarakter daşıyır.

Yuxarıda sadalanmış metodlar ümumi bacarıqların inkişafına təkan verir. Xüsusilə də: məlumatın axtarılması və təşkili, yaradıcı təfəkkür, kommunikasiya, tədqiqat, öyrənmə bacarığı, əməkdaşlıq. Lakin Milli Tədris Planının məqsədlərindən irəli gələrək, xüsusi bacarıqların inkişaf etdirilməsi də vacibdir. Buna isə diskussiya və debatlar dəstək göstərir.

**Debatlar** ən yaxşı fəallıqlardan biridir, hansı ki, tədris prosesini daha əyləncəli və yaradıcı edir. O tənqidi təfəkkürlə təqdimatın ən mühüm bacarıqların təkmilləşməsi və inkişafına təkan verir. Həmçinin koqnitiv və idraki bacarıqları da sadalaya bilərik, hansıları ki, şagirdlər debatlar vasitəsilə inkişaf etdirirlər: abstrakt təfəkkür, vətəndaşlıq hissi, etiketlə tanışlıq və ona əməl etmək, özünütəşkil, özünəgüvənmə, ümumi danışıq mədəniyyəti, tədqiqat, komanda şəklində işləmək. Və bu tam siyahı deyildir. Bizim fikrimizcə, tarix müəllimi debatlardan tez-tez istifadə edə bilər, çünki tarix dərsində onlar xüsusi əhəmiyyət daşıyırlar. Yuxarıda sadalanmış bacarıq və qabiliyyətlərin inkişafı ilə yanaşı, tarixin dərkinin ən yaxşı yollarından biridir. O tarix müəlliminə fənn standartı ilə nəzərdə tutulmuş məqsədlərə çatmağa kömək edir, şagirdin motivasiyasını yüksəldir, tədris prosesini daha maraqlı edir. Debatlar tarixin tədrisinin müasir yanaşmasına uyğundur, hansı ki, tarixlərin və faktlarına yadda saxlanılmasına deyil, tarixi proseslərin təhlilinə və analizinə, tarixi şəxsiyyətlərin və hadisələrin müxtəlif rakurslardan baxılmasına yönəlibdir.

**Debatların** keçirilməsinin birinci mərhələsində arzu ediləndir ki, debatda iştirak etmək hüququ əsasən fəal şagirdlərin əlində olsun. Buna görə də “üç kart” strategiyasından istifadə edin. Bu strategiyaya görə, müəllim hər şagirdə debat başlamazdan qabaq üç kar verir, harada ki, “sual ya şərh” sözləri yazılıbdır. Əgər şagirdin diskussiyaya qoşulmaq istəyi olsa, kartı qaldırır, sual verdikdən və ya şərh etdikdən sonra isə kartı kənara qoyur və çevirir. Onun diskussiyaya üç dəfə qoşulmaq imkanı olacaqdır. Belə ki, bu strategiya şagirdi məcbur edir ki, yaxşı fikirləşsin və diskussiyaya sonra qatılsın. Bu xüsusilə aktiv şagirdlərə şamil olunur. Onlar çalışırlar ki, fikirləşsinlər, edəcəkləri şərhə görə, “kartı” itirməyə dəyər, ya yox, bəlkə onu daha əhəmiyyətli və dəyərli şərh üçün saxlasınlar. Bütün iştirakçılar kartlarını istifadə edənə qədər, hər üç kartı istifadə etmiş şagird diskussiyadan ayrılır.

Müzakirə etdiyimiz metodlar əhəmiyyətli dərəcədə faydalıdır və həm ümumi, həm də xüsusi bacarıq və qabiliyyətləri inkişaf etdirir. Lakin müşahidə nəticəsində məlum oldu ki, şifahi nitqlə bağlı bu metodlar hər bir şagirdin dərs prosesinə eyni fəallıqla qoşulmaq imkanını vermir. Ola bilər ki, şagird mülahizəsini söyləyə bilmədi, bəzisi özünü ələ aldı, bəzisinə isə fikrini istədiyimi kimi söyləməyə vaxt qalmadı. Bununla yanaşı, şifahi nitqlə bağlı metodların tətbiqi ona təminat vermir ki, şagird oxuduğu mətni sona qədər dərk elədir, məsələnin məğzinə dərindən bələd oldu. Yazılı tapşırıqlar məhz bu cür çatışmazlıqları aradan qaldırmaq imkanını verir. Yazılı tapşırıq zamanı, şagird fərdi, sakit vəziyyətdə işləyir. Çalışır ki, öz mülahizəsini aydın şəkildə formalaşdırsın və arqumentlərlə əsaslandırsın. Bu zaman ona başqalarını özünün fikrinin doğruluğuna inandırmaq,başqalarının mülahizələrinə görə hesab vermək və güzəştə getmək lazım gəlmir. Amma əvəzində, şagirddən tarixi məzmunu əsaslı şəkildə təhlil etmək tələb edilir.

# 4. DƏRSİN PLANLAŞDIRILMASI

**Dərsi necə planlaşdıraq?**

Dərsi planlaşdırmazdan əvvəl, standartda bu mövzunun və konkret dərsin adı keçən nəticələri və indikatorları axtarıb tapın (hədəflər xəritəsinə bax) və özünüzə iki sual verin:

1. Arzuolunan nəticəyə necə nail olum?
2. Necə başa düşə bilərəm, nəticəyə nail ola bildim, ya yox?

Dərs elə planlaşdırılmalıdır ki, tədris materialının mənimsənməsi əsasən sinifdə (tədris prosesində) baş versin, tapşırıqlar isə az miqdarda verilməlidir ki, evdə məktəbdə əldə etdikləri biliyi möhkəmləndirə və təkrarlaya bilsinlər.

Dərsin keçirilməsi üçün sizə üç fazalı dərs modelini təklif edirik. ABC dərs modeli necədir?

O üç fazadan ibarətdir (A, B, C) və adı da məhz burdan götürülmüşdür.

**A fazasında** öyrənilәsi məsələyə qarşı şagirdlərin təhriki və marağın oyadılması baş verir. Şagirdlər bu məsələ ilə bağlı artıq bildiklərini (və ya eşitdiklərini) yadlarına salırlar.

Elə bu fazada onların motivasiyası və fəallaşdırılması baş tutur. Şagirdlərin fəallaşması o deməkdir ki, onlar özləri düşünməli, diskussiyaya qoşulmalı, mülahizə yürütməli və suallar verməlidirlər. Sualların yarandığı yerdə tədqiqat və idrak da meydana gəlir. Buna görə də şagirdlərdə marağın oyadılmasını təşviq etmək lazımdır.

Bu pillədə şagirdlərin bu məsələləri nə üçün öyrənməli olduqlarını dərk etmələri əhəmiyyətlidir ki, dərs prosesini səbirsizliklə gözləmək hissi formalaşsın.

**B fazası –** bu biliyin qurulması (konstruksiyası) pillәsidir. Bu pillədə şagird yeni məlumat və ideyalarla tanış olur. Bu mətni oxumaqla və ya hadisələri birbaşa müşahidə etməklə, şəxsi təcrübəyə əsaslanmaqla, yaxud danışılanı dinləməklə və başqa fəallıqlarla həyata keçirilə bilər. "Konstruksiya" sözünün də bizə dediyi kimi, bu fazada şagird tərəfindən yeni məlumatın kəşfi, qazanılması, qurulması baş verməlidir, hazır biliyinin mexaniki yadda saxlanılması yox. Bu öyrənmə fazasıdır, nə zaman ki, şagird maksimal həddə fəal və müstəqildir. Bu zaman A fazasında oyadılmış marağın mənimsənməsi və meydana çıxmış suallara cavabların axtarılması, yeni məlumatın qavranması, tənqidi analiz və nəticələrin çıxarılması baş verir.

**C fazası –**dərk etmə ilə biliyin bütövləşməsi pilləsidir. Məhz bu fazada yeni biliyin keçmiş biliklə əlaqələndirilməsi, sintezi, biliyin bütövləşməsi, yeni anlayışların məğzinə varma baş verir. Yeni bilik insana yeni bir şey gətirir. Bu yenilik bacarıq və qabiliyyətlərlə, yaxud intellektin inkişafı ilə, dəyərlər sistemi ilə, əhval-ruhiyyənin formalaşması və ya praktiki məşğuliyyətlə bağlı ola bilər. Bu cür dərk etmək nəticəsində, şagird mövcud olanları yaxşı və uzunmüddətli yadda saxlayır və qazanılmış biliyi həyatında tətbiq edə bilir.

Bu fazanın vəzifəsi, şagirdlər arasında fikir mübadiləsi aparmaq, bunun əsasında leksik ehtiyatını zənginləşdirmək, baxış dairəsini genişləndirmək və dərk etməni dərinləşdirməkdən (Piajenin dediyinə görə, uşaq həmyaşıdı ilə mübahisəyə qoşulduğu andan düşünməyə başlayır) ibarətdir.

Dərsin planlaşdırılması prosesində müəllim ABC modelinin hər üç fazasını yaxşı dərk etməli və planlaşdırmalıdır.

Bu işdə ona bizim təklif etdiyimiz metodlar və dərs ssenarilərinin nümunələri yardım edəcək.

**Məqsəd**

Dərsi planlaşdıran zaman, dərsin məqsədi müəyyənləşdirilməlidir, çünki, dərsin məqsədi, öz növbəsində, onun nəticələrini təqdim edir, yəni müəllim öncədən müəyyənləşdirməlidir ki, onun şagirdləri bu dərsdə nəyə nail olmalıdır (dərsin konkret və perspektiv məqsədləri).

**Dərsin planında aydın görünməlidir:**

- Dərsin konkret məqsədləri;
- Dərsin perspektiv məqsədləri;
- Şagirdlərdən nələri gözləyirik? Bu dərsdə onlar hansı bilik və bacarıqlar qazanacaqlar?

**Vəzifələr:**

Məqsədlərə nail olmaq üçün qarşıya müəyyən vəzifələr qoyulmalıdır. Məsələn:

1. Dərsdə yerinə yetiriləcək fəallıqların müəyyənləşdirilməsi;
2. İşin yerinə yetirilmə mərhələləri;
3. Qazanılmış bilik və qabiliyyətləri aşkarlamaq;
4. Qiymətləndirmə meyarları.

**Zəruri şərtlər və resurslar:**

Məqsədlərə nail olmaq üçün, şagirdlərin planlaşdırılmış fəallığın keçirilməsinə hazır olub-olmadığı müəyyən edilməlidir. Müəllim gərək öncədən hesablasın, ona bu layihəni uğurla həyata keçirmək üçün nə qədər zaman və hansı resurslar lazımdır (dərslik, müxtəlif elmi və ya yaradıcı ədəbiyyat, iş sxemləri, əyani vasitələr, şəkillər, diaqramlar, qrafiklər, illüstrasiyalar və s.), yəni müəyyənləşdirilməlidir:

- Dərs üçün zəruri material;
- Nəzəri və təcrübi işin icra mərhələləri.

**Dərsin təsviri:**

Müəllim dərsin gedişatını, hər bir mərhələsini, bu dərsdə yerinə yetiriləcək fəallıqları xırdalığı ilə təsvir etməlidir(yəni, müəllim dərsin məqsədlərini necə həyata keçirir və əsasən, bu dərsin gedişatında nəyi daha əhəmiyyətli hesab edir).

**Dərsin gedişatı:**

Planın bu hissəsi dərsin bütün detalları ilə təsvir olunmasını nəzərdə tutur:

Arzu olunandır ki, müəllim dərsin gedişatını elə təsvir eləsin ki, onun məsləkdaşı istədiyi təqdirdə, təklif edilmiş dərs modelindən istifadə edə bilsin.

Yaxşı olardı ki, planda 3 mühüm faza xırdalığı ilə təsvir edilsin:

**1.** Giriş – çağırış, yəni təhrik etmə mərhələsi;

**2.** Əsas fəallıq – məzmunun həyata keçirilməsinə, məsələnin məğzinin qavranmasına xidmət edən əsas hissədir;

**3.** Nəticə hissəsi – idraki mərhələ, bu mərhələdə dərsin gedişatı zamanı müzakirə edilmiş mövzuların analizi, sintezi, müqayisəsi, ümumiləşdirilməsi və qazanılmış biliyin möhkəmləndirilməsi baş verir.

Yaxşı olar ki, müəllim planın hər bir fazasına nə qədər vaxt sərf edəcəyini öncədən hesablasın (dərsin zaman vahidində bölünməsi).

**Hər bir mərhələni ayrı-ayrılıqda müzakirə edək:**

**Giriş**

Dərsin giriş hissəsi, zəruri olduğu təqdirdə, əvvəlki dərsdə müzakirə edilmiş mövzunu xatırlamaqla (frontal suallarla) başlaya bilər. Bu mərhələdə şagird məsələ ilə bağlı məlumatı, keçilmiş materialı

hafizəsində bərpa etməlidir, hansı ki, öz növbəsində, şagirdin yeni mövzuya hazırlaşmasına təkan verəcək.

Əsas odur ki, aşağıdakıları öncədən müəyyən edəsiniz:

- Şagirdləri dərsin məqsəd və vəzifələri ilə necə tanış edəsiniz?
- Şagirdlərin diqqətinin cəmləşməsinə, mobilliyinə və motivasiyasına necə nail ola bilərsiniz?
- Dərsin məqsədlərini şagirdlərin maraqları ilə necə əlaqələndirə bilərik.

**Əsas hissə (məzmunun reallaşdırılması)**

Bu mərhələnin vəzifəsini, bir tərəfdən "çağırış" etapında oyadılmış marağın və impulsun saxlanılması, digər tərəfdən şagirdlərin fəallığının dəstəklənməsi təşkil edir (diskussiyada iştirak, tənqidi analiz, nöqteyi-nəzərlərin qarşılaşdırılması və müqayisəsi, alternativ yolların axtarılması).

Bu mərhələdə əhəmiyyət kəsb edir:

- Dərsin əsas mövzusunun müəyyənləşdirilməsi;
- Dərs prosesinin maraqlı idarə edilməsi üçün lazımi üsulların və metodların seçilməsi;
- Şagirdlər əldə edilmiş biliyin mühümlüyünü və əhəmiyyətini dərk edə bilməlidirlər.

**Yekun hissə (refleksiya, idrak)**

Dərsin bu hissəsində bir neçə zəruri məqamlar meydana çıxa bilər:

Dərsin bu mərhələsində şagirdlərin qazandıqları bilik və informasiyanın qavranması və əsaslandırılması,məsələ ilə bağlı şəxsi münasibətin formalaşması, nöqteyi-nəzərin və ya informasiyanın interpretasiyası (öz sözləri ilə ifadə etmə) prosesi gedir.

Şagird ona tanış məzmunda mənimsədiyi, öz sözləri ilə ifadə etdiyi və əsaslandırdığı hər şeyi daha yaxşı yadda saxlayır. Qavrama məlumatın məzmun sxemində yerləşdirildiyi zaman bünövrəli olur.

Bu fazanın ikinci vəzifəsi şagirdlər arasında sağlam fikir mübadiləsidir. Refleksiya zamanı diskussiyaya qoşulma, nəinki təkcə diskussiya iştirakçılarına, həmçinin passiv dinləyicilərə belə dərk etmək, düşünmək və bunun əsasında, müzakirə edilmiş məsələ ilə bağlı öz fikrini və münasibətini formalaşdırmaq imkanını

yaradır. Bundan başqa, bu tədris prosesində dəyişiklik və re-konseptuallaşma pilləsini təşkil edir. Bu mərhələdə, yeni məlumatın inteqrasiyasına dair müxtəlif vasitələrlə tanışlıq prosesi baş tutur. Bu sonuncu, bizi daha çevik konstruksiyalara yaxınlaşdırır, hansını ki, gələcəkdə şagirdlər daha təcrübi və məqsədyönlü şəkildə istifadə edə bilərlər.

Bundan başqa, dərsin yekun, yəni refleksiya mərhələsində müəyyənləşdirilməlidir:

1. Dərsin sonunda yekunlaşdırmanın hansı üsuluna müraciət edirsiniz.
2. Şagirdlərlə əks-əlaqəni necə həyata keçirirsiniz.

Dərsin sonunda müəllim şagirdlərə tapşırıq verir: evdə bu dərsdə nə etdiklərini bir daha yadlarına salsınlar, dərslikdə verilmiş məlumat (mətn, mənbə) ilə diqqətlə tanış olsunlar (oxusunlar) və "ev tapşırığını" yerinə yetirsinlər.

**Xüsusi təlim ehtiyacı olan şagirdlərin təhsil prosesinə qatılması haqqında metodoloji tövsiyə**

Təhsil alarkən, bir çox uşaq tədrislə bağlı çətinliklərlə üzləşir, hansı ki, şagirdin fiziki, intellektual, sosial, emosional, linqvistik və ya başqa vəziyyətləri ilə bağlı olur. Ölkənin təhsil sisteminin başlıca vəzifəsi bütün uşaqların uğurlu təhsil alma yollarını axtarıb tapmaq öhdəliyini qoymaqdır.

İnklüziv təhsil xüsusi təlim ehtiyacı olan şagirdlərin təhsil prosesinə qoşulması anlamına gəlir. Onun məqsədi uşaqların təliminin dəstəklənməsi, onların inteqrasiyası, imkanların üzə çıxarılması və

inkişaf etdirilməsindən ibarətdir. “İnklüziya” sözü qoşulmaq mənasını daşıyır. İnklüziv təhsilin məqsədi, bütün uşaqlara yaşayış yerinə yaxın, həmyaşıdları ilə oxumaq və keyfiyyətli təhsil almaq üçün bərabər imkanların verilməsindən ibarətdir.

İnklüziv təhsil bütöv məktəbin və fənn müəlliminin sərasər əməyini tələb edir ki, onlar öz növbəsində, xüsusi təhsilə ehtiyacı olan şagirdlərin imkanlarını gücləndirə və inkişaf etdirə bilsin, onun akademik və sosial bacarıq və vərdişlərini təkmilləşdirsin, şagirdi müstəqil həyat üçün hazırlasın və cəmiyyət üçün tamhüquqlu bir üzv kimi formalaşmasını fəal şəkildə dəstəkləsin. O, məktəb və sinif fəallıqlarında tam surətdə iştirak etməlidir.

Diferensiasiya nəzəriyyəsi nəticəyə əsaslanır ki, buna əsasən şagirdlər arasında əhəmiyyətli fərqlər mövcuddur (K. Tomlinson). Bu nəticə əsasında diferensiasiya nəzəriyyəsi bizə strategiya təklif edir ki, bu da müəllimə kömək göstərir, əlahiddə şəraitlər yaratmağa və hər bir şagirdin biliyə yaxşı yiyələnməsinə imkan verir. Bunun üçün müəllim müxtəlif növ tədris materialından istifadə edir, fərqli tapşırıqlar verir və başqa cür təcrübəyə əl atır.

Bu nəzəriyyəyə görə, öyrənmə prosesində həyata keçirilən fəallıqların məzmunu, prosesi, məhsulu şagirdlərin nəyə hazır olduqlarından irəli gələrək, sistematik dəyişir.

Sinif otağında diferensiasiya nəzəriyyəsinin praktiki olaraq həyata keçirilməsi zamanı müəllim aşağıdakı tərkib hissələrin modifikasiyasını başa çatdırır:

- Tədris materiallarının;
- Tədris resurslarının;
- Tədris mühitinin;

Modifikasiya 3 əsas amilə görə vacibdir:

1. Oxumaq imkanı;
2. Oxumaq motivasiyası;
3. Oxumaq səmərəliliyi.

Bu hər üç aspekti mütləq bir-biri ilə əlaqələndirməliyik;

- Şagirdin hazırlığı ilə;
- Maraqla;
- Oxumaqla.

Burası da faktdır ki, bütün uşaqlar bir-birlərindən fərqlidirlər. “Standart” şagird mövcud deyil və ideal üsul mövcud deyil ki, bununla müəllim bütün şagirdlərin problemlərini qaydasına salsın. Diferensiasiya nəzəriyyəsi məhz bu zaman bizə kömək göstərir, hansı ki, şagirdlər arasında əhəmiyyətli fərqlərin mövcudluğunu qəbul edir. Tədris prosesinin planlaşdırılması zamanı o tədrisin modallaşdırılması nöqteyi-nəzərindən diferensial yanaşma tətbiq edir. Onlara istinad etməklə, müəllim şagirdlərin fərqləndirilməsinin tədris məqsədi ilə nəzərdə tutulmuş nəticələrə nail olmaq üçün bu üsuldan istifadə edir.

- Dinləmə;
- Vizual;
- Kinestetik.

Vizual öyrənənlər

Vizual öyrənənlər sinfin ən iri qrupunu təşkil edirlər. Bu cür şagirdlər tədris materialını ona görə “görməlidirlər” ki, o anlaşılan olsun. Əhəmiyyətli cəhət burasıdır ki, vizual kömək vasitələri olmalıdır ki, bunların vasitəsilə onlar məlumatı görə bilsinlər.

Dinləməklə öyrənənlər

Dinləməklə öyrənənlər sinfin kiçik qrupunu təmsil edirlər. Çox güman ki, oturmaqla və dinləməklə öyrənən şagirdlərin sayı, multimedianın, bugünkü texniki vasitələrin ucbatından çox azalmışdır.

**Kinestetik üslub ilə öyrənmə**

Sprencer deyir: “hər bir dərs hərəkəti əhatə etməlidir. Bu hərəkəti götürün və onu tez-tez təkrar edin. Axırda o daimi yaddaşa çevrilir. Əgər düzünü desək, mühazirə tipli dərslərə üstünlük verən pedaqoqlar, kinestetik öyrənmə zamanı böyük çətinliklərlə qarşılaşacaqlar. Bu qisimdən olan şagirdlərə hərəkət lazım gəlir. Onlara həmçinin elə tədris modeli lazımdır ki, onu əllə tutsunlar və toxunsunlar. Bu cür şagirdlərə təcrübi fəallıqlarda iştirak etmək və praktiki öyrənmək ona görə lazımdır ki, tədris materialı onlar üçün başa düşülən olsun. Diferensiasiya nəzəriyyəsini tətbiq edərkən müəllim aktivlikləri müxtəlif modullu şagirdlər üçün planlaşdırır, səmərəli tədris mühiti yaradır, bununla da sinifdə olan müxtəlif imkanlara malik şagirdlərə oxumaq imkanı yaradır. Nə zaman ki, şagirdə tədris materialı verilir, müvafiq modallaşmada məlumatın sürətli kodlaşdırılması baş verir və o itmir.

**Sinif otağında diferensiasiya nəzəriyyəsindən istifadə etmək müxtəlif formatda mümkündür:**

**1.** Tədris materialı və fəallıqlar bütün moduldan olan şagirdlər üçün nəzərdə tutulmuşdur; bu formatda öyrənməyin nailiyyəti ondan asılıdır ki, müəllim fəallıqların səviyyəsində diferensiasiya nəzəriyyəsinin həyata keçirilməsini nə dərəcədə düzgün yerinə yetirə bilir.

**2.** Sinifdə qrupların yaradılması tədris modallarının əsasında baş verir və hər bir qrup üçün müvafiq məşğələ yaradılmışdır. İkinci format bu mülahizəyə söykənir ki başlıca cəhət bundan ibarətdir, şagird bu modallığı öyrənsin, Hansı ki, onun üçün dominantdır. Bu formatla öyrənməyin səmərəliliyi iki faktordan asılıdır:

1. Müəllim qrupların komplektləşdirilməsini müvafiq modallara əsasən necə düzgün bacarmışdır;
2. Tədris fəallığı konkret modallaşdırma çərçivələrində nə dərəcədə düzgün adaptasiya edilmişdir.

Təcrübədə ikinci modallaşma daha populyardır, lakin təhsil mütəxəssisləri daim birinci formatın səmərəliliyini qeyd edirlər.

# 5. V-VI SİNİFLƏRİN STANDARTI

**a) VI sinfin sonunda nail olunmalı nəticələr**

**İndekslərin izahı**

Başlanğıc pillədə standart üzrə müəyyənləşdirilmiş nəticənin qarşısında indeks göstərilir, hansı ki, fənnə, tədris mərhələsinə və standart nəticəsinin nömrəsinə işarə edir.; məs. **İct.elm.ibt.(II).1**.:

**"İct.elm"** –ictimai elmlərə işarə edir;

**"İbt." –** ibtidai pilləni göstərir;

**"(II)" –** işarə edir ki, standart V-VI sinifləri əhatə edir

**„1"** – standartın nəticəsinin nömrəsini göstərir.

| **"Bizim Gürcüstan" standartı (V-VI siniflər)** | |
|---|---|
| **Nəticələrin indeksi** | 1. İstiqamət: zaman, məkan və dəyişkənlik |
| | Şagird bacarmalıdır: |
| **İct.elm.ibt.(II).1.** | Tarixi faktları və hadisələri xronoloji kəsikdə dərk etməyi və ifadə eləməyi. Onların müasir sosial-mədəni mühitlə və tarixi irsiliklə əlaqələndirməyi; |
| **İct.elm.ibt. (II).2.** | Əfsanələr və miflərin, əhəmiyyətli tarixi hadisələrin və şəxsiyyətlərin local mühiti ilə əlaqələndirməyi; Ölkənin inkişafında şəxsiyyətin rolunu dərk etməyi; |
| **İct.elm.ibt.(II).3.** | Gürcüstan regionlarının təbii və sosial-mədəni göstəricilərinin öyrənilməsini; |
| **İct.elm.ibt.(II).4.** | Xəritənin legendasında verilmiş şərti işarələr vasitəsilə xəritəyə köçürülmüş məlumatı oxumağı; |
| **İct.elm.ibt.(II).5.** | Gürcüstan üçün xarakterik olan təbii hadisələri yaradan səbəbləri və onların nəticələrini dərk etməyi; təbii hadisələrə müvafiq reaksiya verməyi və onlardan mühafizə olunmağı; |
| | **2. İstiqamət: təşəbbüs və istehsal** |
| | Şagird bacarmalıdır: |
| **İct.elm.ibt.(II).6.** | Ölkənin inkişafında ticarətin, başqa ənənəvi və dövrümüzün peşə və məşğuliyyətlərin əhəmiyyətini və zərurətini dərk etməyi; |
| **İct.elm.ibt.(II).7.** | İnsan və maddi resursları nəzərə almaqla nəticəyə yönəlmiş məşğuliyyəti planlaşdırmağa təşəbbüs göstərməyi; |
| | 3. İstiqamət: sosial-mədəni inkişaf, vətəndaşlıq və təhlükəsizlik |
| | Şagird bacarmalıdır: |
| **İct.elm.ibt.(II).8.** | Onun bir uşaq kimi müəyyən hüquq və vəzifələrini, eləcə də məsuliyyəti dərk etməyi; təsbit edilmiş qayda və qanunlar əsasında öz hüquqlarını reallaşdırmağı və başqalarının hüquqlarını müdafiə etməyi. |
| **İct.elm.ibt.(II).9.** | Cəmiyyət üçün aktual problem və hadisələrin tarixi və müasir dövr kəsiyində dərk etməyi; özünün iştirakı ilə onların düzəldilməsi mexanizmləri dərk etməyi. |
| **İct.elm.ibt.(II).10.** | Sağlam həyat tərzininin (şəxsi gigiyena, sağlam qida, ənənəvi və dövrümüzün idman aktivlikləri) əhəmiyyətini dərk etməyi və ona əməl etməyi; |
| **İct.elm.ibt.(II).11.** | Təhlükəsiz qaydalarına əməl etməyin əhəmiyyətini dərk etməyi və əlahiddə və məişət vəziyyətlərində müvafiq olaraq davranmağı (məs., küçədə hərəkət edərkən, nəqliyyatda olarkən, ekskursiya, səfər zamanı, təbii fəlakət olarkən); |

| “Bizim Gürcüstan” standartı (V-VI siniflər) | |
|---|---|
| **İct.elm.ibt.(II).12.** | Fərdin və cəmiyyətin inkişafı üçün dəyərlərin, məs.: demokratiya prinsiplərinin, tarixi-mədəni irsin qorunmasının, ətraf mühitin mühafizəsinin, toleratlığın – və əhəmiyyətini dərk etməyi; |
| **İct.elm.ibt.(II).13.** | Gürcüstanın etnik, mədəni-dini rəngarəngliyini idrakı və pozitiv münasibət göstərməyi; |
| **İct.elm.ibt.(II).14.** | Təbii mühitin, tarixi və mədəni irsin əhəmiyyətini dərk etməyi və ona qarşı qayğıkeş münasibət göstərməyi. |
| **İct.elm.ibt.(II).15.** | Onun ətrafında olan sosial-mədəni institutların (məs., məktəb, kultativ (dini) tikililər, kino, klub, muzey, tibbi müəssisə, polis) funksiyalarını dərk etməyi. |

**b) Məzmun**

Tədris prosesi aşağıdakı idraki kateqoriya və mövzuların emalı əsasında idarə edilməlidir:

**Anlayışlar və terminlər**

Şah Abbasın Gürcüstana yürüşləri barədə mini mühazirə. Şagirdlərə bu barədə söhbət açın ki, 1614-1617-ci illərdə I Şah Abbas Kartli-Kaxetiyə qarşı dörd dəfə yürüş təşkil etdi. Yalnız bir yürüş zamanı Kaxetidən 200 min insanı İranın daş kəsəkli regionuna – Fereydana sürgün etdilər. Hücumlar nəticəsində, əhalidən boşalmış İori və Alazaninin məhsuldar vadilərində türkmənlərin yerləşdirilməsinə başlanıldı. Bu yürüşlərə baxmayaraq, Şah Abbas Şərqi Gürcüstanı məğlub edə bilmədi. Gürcülər düşmənə hünərlə müqavimət göstərirdilər. 1625-ci ildə Giorgi Saakadzenin – anti İran üsyanı nəticəsində Kartli-Kaxetinin azad edilməsi mümkün oldu və birinci Teymurazın çarlığı altında birləşmə baş verdi.

Baxtrioni üsyanı barədə müzakirəni müstəqil mülahizələrlə davam etdiririk və problemin dərk olunması, tənqidi analiz qabiliyyəti nümayiş etdiririk. Şagirdlər Fereydanlı gürcülər barədə öz mülahizələrini söyləyirlər. Sürgün olunmuş gürcülər arasında dili qoruyub saxlamağın necə böyük əhəmiyyətə malik olduğu barədə öz mülahizələrini bildirirlər.

Qaçqınların bu gün ki vəziyyəti barədə məlumat əldə etmək üçün müxtəlif mənbələrdən istifadə etsinlər: internet resurslar, şifahi tarixlər, sosial şəbəkələr.

| Dərsin mövzusu | 1.8. Kaxeti təbiətinin diqqətə layiq cəhətləri |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Kaxetinin gəzməli-görməli yerləri ilə tanış olur.<br>Şagird təbiəti mühafizənin zəruriliyi barədə mülahizə yürüdür.<br>Şagird təbiəti mühafizə problemlərini təhlil edir. |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 11 (II) 12 (II) 13 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Kaxeti təbiətinin diqqətə layiqliliyi barədə onlar arasında mühafizə olunan ərazilər barədə mini mühazirə. (5 dəq)<br>**Fəallıq 2.** Mətnin təhlili. Şagirdlər mətnlə tanış olurlar və "təbiəti nəyə görə mühafizə etməliyik" mövzusunda qısa inşa yazırlar. (15 dəq)<br>**Fəallıq 3.** Yerinə yetirilmiş tapşırığı sinfə təqdim edirlər. (15 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə. (2 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – təbiəti mühafizə problemləri barədə şüar fikirləşin. |
| **Sinfin idarəedilməsi** | Fərdi, ümumi sinif |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Kaxetinin təbii və sosial – mədəni xüsusiyyətləri |

Mini mühazirə vasitəsi ilə, müəllim rekreasiya resurslar barədə məlumat verir. Şagirdləri iki qrupa bölür: təbii – rekreasiya və mədəni- tarixi resurslara. Kaxeti hər iki tip resurslarla zəngindir. Mədəni- tarixi resurslar barədə, şagirdlərə artıq əvvəlki dərslərdən məlumat verilmişdir. O ki, qaldı təbii- rekreasiya resurslarına, onların dənizlər, göllər, çayların sahilləri, meşələr, dağlar, milli parklar, qoruqlar daxildir. Bu cəhətdən Laqodexi və Vaşlovani qoruqları seçilirlər. Turistləri həmişə elə ölkələr cəlb edir, harada ki, istirahət üçün əlverişli təbii şəraitlər və tarixi-mədəni gəzməli-görməli abidələr bir-biri ilə uzlaşır.

## Əlavə məlumat

**Rubrika-bu maraqlıdır**

Vaşlovani qoruğunun adı burada yayılmış buxur ağacı ilə əlaqədardır. Buxur ağacları uzaqdan alma ağaclarına bənzəyir və elə buna görədir ki, bu yer "Vaşlovani" adlandırılmışdır.

Vaşlovanini bəzən gürcü savannası adlandırırlar. Qoruğun bitkiləri öz görkəminə görə savannanın bitkilərinə bənzəyir, lakin onunla ümumi heç bir əlaqəsi yoxdur və bitki tərkibi müxtəlifdir. Alazani çalasının təbii abidəsi Vaşlovaninin mühafizə olunan ərazisinə mənsubdur.

Bu Gürcüstanda yeganə ərazidir, harada ki, vəhşi qoz ağacları bitir. Elə ona görədir ki, onu həm də ceviz körfəzi də adlandırırlar.

Ardzivi dərəsi də Vaşlovani mühafizə olunan ərazisinin tərkibinə daxildir. Bu sıldırım qayalıqlarda kəsilmiş kanyondur. Burada endemik və nəsli kəsilmək təhlükəsi qarşısında olan nadir bitkilər böyüyür. Bunlar aşağıdakılardır, məsələn, Kaxeti zəngçiçəyi.

**Laqodexinin mühafizə olunan əraziləri** Laqodexi qoruğunu və qadağan edilmiş ərazini əhatə edir. Qoruq 1912-ci ildə yaradılmışdır və Gürcüstanda ilk mühafizə olunan ərazidir. Burada çoxlu endemik bitkilər yayılmışdı. Heyvanlardan isə Gürcüstanda artıq kəskin sürətdə azalmış növlər məskunlaşmışlar:

dağ keçisi, maral, ceyran, cüyür, ayı, porsuq, tetra quşu, hansını ki, ilk dəfə burada qeydə almışlar.

Kaxetidə, Axmeta rayonunda Badzada-Babneuri mühafizə olunan ərazisi yerləşir. O nəsli kəsilmək təhlükəsi qarşısında olan bitkinin – utxovari (qaraçöhrə) və Azat ağacını mühafizə etmək məqsədi ilə yaradılmışdır.

Əfsanəyə əsasən, qaraçöhrə adı çariça Tamaranın adı ilə əlaqədardır. Göründüyü kimi, bu ağac o dərəcədə qiymətli bitki hesab olunurdu ki, onun kəsilib-kəsilməməsi məsələsini çariça Tamaranın özü həll edirdi və bu indiki halda çarın iradəsindən asılı idi və çariça buna icazə verməyərək “toxunmazdır” cavabını verir. Buna görə də həmin bitkiyə “utxovari” (xahiş olunmaz) adını verirlər. Peterburqda Ermitajın, Rəsm Qalereyasının bəzi salonlarında döşəmə məhz gürcü qaraçöhrə ağacının taxtaları ilə gözəlləşdirilmişdir.

Qədim zamanlarda utxovari ağacından sandıq hazırlayırdılar ki, gəlin onun içərisinə öz cehizlərini yığa bilsin.

**Üzüm yığımı və mərasimlər**

İmeretidə üzüm yığıldıqdan sonra tənəklikdə xoruz kəsərdilər. Sağlam canlı-cüssəli uşağı diyirləyərdilər ki, gələcəkdə bu ağırlığında salxımlar töksün deyə. Kartlidə üzüm yığımı başlamazdan əvvəl ziyarətgahda keçi, qoyun və ya xoruz kəsərdilər. Süfrəni üzüm bağında açardılar, ilk kəsilmiş ciyəni isə allaha həsr edərdilər.

Racada qırov qurumamış üzümü yığmağa başlamazdılar, çünki qırovlu üzümə su hopur və bunların düşüncəsinə görə bu üzümdən şərab yumşaq olur- deyirdilər.

Samaqreloda üzum dərilən zaman əsl bayram təşkil olunurdu. Ailənin böyüyü uşağı arxasına götürürdü və uca tənəyin yanına gedirdi və dua edirdi – sən də belə üzüm salxımlarından belə əyil, necə ki, mən yükdən əyilmişəm.

Kaxetidə üzüm yığımından sonra ən kök ağır çəkili qadını üzüm bağında yumarlayırdılar ki, gələcəkdə də bərəkətli məhsul yetişəydi.

**YUNESKO** küp şərabı hazırlamağın qədim gürcü ənənəvi metoduna Mədəni İrs Abidəsi statusu vermişdir.

**David Qareci monastırı** VI əsrdə assuriyalı keşişlərdən biri, David tərəfindən yaradılmış monastır kompleksidir. Burada mövcud olan sərt təbii şəraitləri rahiblərin asketik həyatlarına uyğun idi. Hətta suyun da kəskin acı dadı vardı. Rəvayətə əsasən, keşiş Davidin duaları ilə su duruldu və içməyə yararlı oldu. Bu bulağı “David yaşları” adlandırdılar. Çoxsaylı qovurmalara baxmayaraq, monastır həyatı David Qarecidə XIX əsrin sonunadək davam etmişdir. Məlumdur ki, Şah Abbas XVII əsrdə burada yaşayan bütün rahibləri qırdı.

Neçə-neçə məşhur vətən oğlu **Kaxetinin sakini idi**. Kvareli – İlya Çavçavadzenin doğma diyarıdır. Kizixdə, Mirzaani kəndində rəssam Niko Pirosmani anadan olmuşdur. Böyük incəsənətin tanınmış rəssamı Elene Axvlediani Telavidən idi. Gürcü teatrının tanınmış rejissorları Kote Marcanişvili və Sandro Axmeteli Kaxetidən idilər. Şair Giorgi Lionidze Saqareco rayonunun Patardzeuli kəndindən idi, Qardenaxidən – İosif Noneşvili, Xaşmidən- Rezo İnanişvili. Məşhur gürcü müğənnisi Vano Sarajişvili Siğnağidə anadan olmuşdu, hazırda Tbilisi konservatoriyası onun adını daşıyır.

**Kvareli şəhəri çayların** – Bursa və Duruci sahillərində salınmışdır. Qədim taxt şəhəri olan Qremi, Nekresi monastırı və iki füsunkar göl- İlya və Kvareli gölləri Kvareli bələdiyyəsində yerləşir. Lopota gölü də Kvareli şəhərinin yaxınlığındadır. Onların hər üçü əhəmiyyətli turist kompleksidir.

Kaxeti xalq mahnıları: **“**Mravaljamieri”, “Gecikdilər”, “Qoca kişiyəm”, “Urmuli”, “Orovela” **gürcü folklorunun mirvariləridir**. “Çakruli” mahnısını isə 1977-ci ildə, Nasa kosmosa buraxmışdır.

## FƏSIL 2. ŞƏRQI GÜRCÜSTANIN DAĞLIQ HISSƏSI

| Dərsin mövzusu | 2.4. Dağlıq guşələrin Gürcüstan dövlətində yeri |
|---|---|
| **Dərsin məqsədi** | Şagird dağı, Gürcüstan üçün təbii regionların əhəmiyyəti kimi təhlil edir |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 6 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Mətn üzərində iş. – Şagirdlər qrup halında dərsliyin mətni üzərində işləyirlər. (10 dəq)<br>**Fəallıq 2.** Şagirdlər mətndən iri və xırda suallar tərtib edirlər.(10 dəq)<br>**Fəallıq 3.** Suallara cavablar. (10 dəq)<br>**Fəallıq 4.** Diskussiya – dağa daha çox aran lazım olan gəlir, yoxsa arana-dağ. (5 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə.<br>**Fəallıq 6.** Ev tapşırığı |
| **Qiymətləndirmə** | Diskussiyanın qiymətləndirilməsi rubrikası |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, ağ vərəq |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, cütlüklərlə |
| **Əvvəl qazanılmış bilik** | Şərqi Gürcüstanın dağlıq hissəsinin tarixi-etnoqrafiq regionları |

**Tövsiyə**

Mürəkkəb və sadə sualların verilməsi strategiyası cədvəlin aşağıdakı qayda ilə doldurulmasını nəzərdə tutur.

| Mürəkkəb suallar | Sadə suallar |
|---|---|
| Şagirdlər bu hissəə dərin və geniş cavab tələb edən açıq suallar yazsınlar. | Şagirdlər bu hissədə eyni əhəmiyyətli cavab tələb edən suallar yazmalıdırlar. |

| Dərsin mövzusu | 2.5. Dağda məskunlaşma tipləri və əsas təsərrüfat məşğuliyyəti |
|---|---|
| Dərsin məqsədi | Dağda inkişaf etmiş təsərrüfat sahələri ilə tanış olsun.<br>Dağın kəndinin özünə məxsusluqları barədə mülahizə yürütsün və onun səbəblərini izah etsin. |
| MTP uyğunlaşma | (II) 3 (II) 5 (II) 14 |
| Dərsin gedişatı | **Fəallıq 1.** Ağıllı xəritə: dağ kəndləri hansı xüsusiyyətlərinə görə seçilə bilərlər və mümkün səbəbləri sadalayın. (5 dəq)<br>**Fəallıq 2.** Mənbə üzərində iş – təsvir etsinlər mənbə 2-də əks olunan nədir və tapşırığın suallarına cavab versinlər. (10 dəq)<br>**Fəallıq 3.** Mətn üzərində iş- təsərrüfatın sahələrinin inkişafı barədə mətnlə tanış olsunlar və cədvəli doldursunlar – bir sütunda Gürcüstanın dağlıq regionları, ikinci sütunda təsərrüfat sahələri. (10 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – bu mövzuda esse yazsınlar. Kəndlərdə ənənəvi təsərrüfat sahələri qorunub saxlanılmalıdır, yoxsa - yox. |
| Qiymətləndirmə | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| Resurslar | Dərslik, yazı taxtası, tabaşir |
| Sinfin idarəedilməsi | Ümumi sinif, qrup işi |
| Əvvəl qazanılmış bilik | Dağın fiziki – coğrafi şəraitləri |

## Əlavə məlumat

(Şərqi Gürcüstanın dağlıq hissəsi)

**Qardaşlaşmaq qaydası** Gürcüstana Pşav-Xevsuretidən yayılmışdı. Qardaşlıq andının iki qaydası var imiş. Sən demə, qardaşlaşmağa and içənlər sağ əlin şəhadət barmağını bıçaqla kəsirdilər bir-birinə yapışdırırdılar, qanı-qana qatırdılar və bundan sonra qardaş hesab olunurdular. İkinci qaydaya əsasən, kəl buynuzunu araq ilə doldururdular, içərisinə gümüşdən hər hansı bir bəzək əşyası atırdılar, ayrı-ayrılıqda dua oxuyurdular və bir-birilərinə qardaş olmağa and içirdilər. Başqa cür qardaşlıq andı içənləri and ilə gümüş yiyənlər adlandırırdılar.

**Qudamağari barədə rəvayət.** Toya qonaq gedən elçilərdən biri atsız qalır. Qalanları isə atla olurlar, lakin heç birinin xurcunu olmur. Ev sahibi elçilər üçün yol azuqəsi hazırlayır və həmin piyadaya yükləyir. Qonaq yolda olduqca yorulur, ağacın altında uzanır və yatır. Elçilər yemək – içməyi soruşurlar və şələ-şüləli elçini axtarmağa başlayırlar. Tapıb-tapmadıqlarını heç kəs bilmir. Bu ad isə o tərəfdə geniş yayılır – Qudamağari.

Betleme mağarası **Mğinvardzveri massivind**ə yerləşir. O 1948-ci ildə gürcü alpinist qadını, Aleksandra Caparidze tərəfindən tədqiq edilmişdir.

Üç yüz **Araqveli-** 1795-ci il sentyabrın 11-də Krtsanisi döyüşündə qəhrəmancasına həlak olmuş döyüşçülər dəstəsi, hansı ki, üç yüz nəfər Pşav-Xevsurdan və Araqvi sahili kəndlilərdən ibarət idi. Deyilənlərə görə, onlar döyüşdən əvvəl bir-birilərinə and içirlər ki, ya qalib gələcəklər, ya da döyüş vadisində məhv olacaqlar, onlar öz andlarına xilaf çıxmadılar.

Həmin döyüşdən 100 il keçmişdi ki, müqəddəs elan olunmuş katolikos – patriarx Kirion qəhrəmancasına həlak olmuş 300 Araqvelinin xatirəsini qeyd etdi və orada yerləşən Müqəddəs Nikolos məbədində fövqəladə ibadət icra etdi, sonra isə Tbilisinin ruhaniləri geniş ictimaiyyətlə birlikdə Krtsanisi döyüşü

meydanında həlak olmuş qəhrəmanların ruhuna böyük yas keçirmişdi. Gürcü vətən övladları İlya Çavçavadzenin təşəbbüsü ilə bu gün böyük milli bayrama çevrildi. "Bu müqəddəs yerdə biz gərək həmişəlik yanan kandellər qoyaq ki, hər burdan keçən 300 Araqvelini və o qəhrəmanları, hansılar ki, vətənin azadlığı uğurunda həlak oldular yada salsınlar, – bu sözləri Gürcüstan katolikos patriarxı artıq 2008-ci ildə söylədi, nə zaman ki, 300 Araqvelini Gürcüstan kilsəsi müqəddəslər cərgəsinə qatdı, nə zaman ki, bizim hərbi, qəhrəmanlıq tarixinin bayramı müəyyən edildi və bu, ənənəyə çevrildi.

**Yürüş qaydaları**

1) Yolda qarşıya çıxacaq çətinlikləri yaxşı başa düşməliyik (yoxuşlarda gəzməyi, tikanlı komalıqlarda gəzişmək, dağlarda və qayalıqlarda axıb gedən balaca çaylardan keçməyi və s.)
2) Müvafiq geyimlə çıxmaq. (botaslar və ya ket, qışda "botinkalar", şalvar və onun üstü, hansı ki, cırılanda heyfsilənməyəcəyik.
3) Kürək çantası gətirmək.
4) Arzu olunandır təyin olunmuş vaxtda gecikməyəsiniz.
5) Yürüş zamanı qrupda bir-birinə hörmət və bir-birinin tərəfini saxlamaq hökm sürməlidir.
6) Qrupun üzvləri qrupun rəhbərinə tabe olmağa borcludurlar və eləcə də daha təcrübəli insanları eşitməlidirlər!
7) Öz başına marşrutdan getmək yolverilməzdir (əgər hansı bir fövqəladə vəziyyət yaranmazsa), lakin kiçik düzəlişlərin daxil edilməsi mümkündür.
8) Elə əşyalara diqqət yetirməliyik, hansılar ki, mümkündür ki, tezcə alışsın və yaxud alışmağa səbəb olsun.
9) Zibili olduğunuz yerdə qoymayın. Yadınızda saxlayın ki, həmin yerə başqası da çıxasıdır. Tövsiyə şagirdləri yürüşün qaydaları ilə tanış edin və başa çatdırsınlar və yaxud yürüşün qaydalarını dəyişsinlər.

**On vəsiyyət**

1. Mən sənin Allahın – rəbbinəm və sən mənə-Allaha yad deyilsən.
2. Özünü kult hesab etmə, nədə buna bənzər bir şeyə, sən nə səma əhlisən və nə də ona bənzər bir şey, nə də onlara xidmət etmə.
3. Allah rəbbinin adını götürmə, sən səma insanı deyilsən.
4. Onu şənbə günü yadına sal və onu müqəddəs hesab et: Allahın adını çağır və hər işini onun adı ilə bağla, yeddinci gün isə, şənbə günü Allah qulluğunda dur.
5. Öz atana və anana hörmət et, yaxşı işlər gör və buna rəğmən dünya üzündə uzunömürlü insan ol.
6. Adam öldürmə.
7. Paxıllıq etmə.
8. Oğurluq etmə.
9. Nə qədər işgəncəyə məruz qalsan belə başqasına böhtan atma.
10. Nə qədər dara düşsən də, nə qədər çətinliklə üzləşsən də arvadını günahlandırma, nə də başqasını günahlandır, tarlanı günahlandırma, qulu günahlandırma, ümumiyyətlə nə öküzü, nə də qarovulu günahkar sayma nə də heç nəyi, şahidi olmadığın heç nəyə şahidlik eləmə.

## FƏSIL 3. SAMSXE-CAVAXETI

| Dərsin mövzusu | 3.2. Samsxe-Cavaxetinin mədəni irsliliyi |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Samsxe-Cavaxetidə mövcud olan mədəni irs abidələri ilə tanış olur.<br>Şagird Gürcüstanın mədəni və tarixi inkişafında Samsxe-Cavaxetinin yerini müəyyənləşdirə bilir. |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 3 (II) 4 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Müəllim Vardziya və Rabati illüstrasiyalarını şagirdlərə göstərir və şagirdlərdən burada bəhs edilən abidələr ilə tanış olmağı xahiş edir. (2 dəq)<br>**Fəallıq 2.** Samsxe-Cavaxetinin mədəni irs nümunələri barədə mini mühazirə (5 dəq)<br>**Fəallıq 3.** Mətnin təhlili. Şagirdlər dərsliyin mətni ilə tanış olurlar və bilirdim, başa düşdüm, bilmək istəyirəm cədvəlini doldururlar. (15 dəq)<br>**Fəallıq 4.** Yerinə yetirilmiş tapşırığın təqdimatı. (10 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 6.** O məsələ ətrafında əlavə məlumat axtarsınlar, hansı ki, onların qrafasında bilmək istəyirəm kimi aşkar edildi. |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, fərdi |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Samsxe-Cavaxetinin coğrafi yerləşməsi |

**Samsxe-Cavaxetinin mədəni irsləri barədə mini mühazirə**

Samsxe-Cavaxeti barədə söhbət ediriksə, ilk növbədə yəqin ki, daşla yonulmuş şəhər – Vardzia yada düşür. Vardzia monastır kompleksi Aspindza bələdiyyəsində, Kürün sağ sahilində yerləşir. Yaşayış məntəqəsini Tamarın hakimiyyəti dövründə xeyir-dua vermişlər. Vardzia ilə neçə-neçə əfsanə bağlıdır.. Sən demə çar Giorgi Didebuli ilə birlikdə ov zamanı bu yerlərdə ov edir və onun qızı Tamarı da özü ilə aparır. Ov etməyə başı qarışan çar və onu müşayiət edən şəxslər Tamaraya diqqət yetirmirlər və oyna başı qarışan uşaq hansısa mağarada yoxa çıxır. Ov dayandırılır. Qorxmuş ovçular o tərəf-bu tərəfə səpələnir və Tamarayı axtarmağa başlayırlar. Ovçulardan birinin səsi gələcək çarın qulağına gedib çatır və o çığırır: buradayam dayı. Bundan sonra oranı Vardziya adlandırırlar. Bundan sonra Kür çayı dərəsindəki bir yüksək qayalıqda şəhər yonmağa başlayırlar. Onu da deyirlər ki, çarın əmri ilə gündə bir otaq yonurlarmış. İnşaatçılar 365 otaq yonurlar və tikinti bir ildə başa çatdırılır.

Zarzma monastrı Adıgen bələdiyyəsində yerləşir. Bütün ilk tikili bizim dövrədək gəlib çatmamışdır. İndiki məbədi və ibadət yerini 14-cü əsrdə Samsxenin başçısı, Beka Mandaturtuxusesinin əmri ilə tikmişlər.

Safara monastrı Axalsıx rayonunda, Qreli kəndinin yaxınlığında yerləşir. Kompleksin ən qədim tikilisi Məryəm Ananın yatdığı bir tağlı kilsədir.

Adzğuri qalası gürcü mədəniyyətinin əhəmiyyətli ocağıdır. Qədim mənbələrdə Adzğveri kimi xatırladılır. Gürcüstan üçün cənubdan yaxınlaşan düşmənə Adzğuri qalası sədaqətli keşişçi kimi dururdu. Xertvisi qalası Cavaxetidə yerləşir. O, antik dövrün tikilisidir və onu Gürcüstanın ilk şəhərlərindən biri kimi xatırlayırlar.

Rabati qalası Axalsixedədir, Potsxi çayının sağ sahilində yerləşir. Qalanın tarixi 9-cu əsrdən başlanır. 16-cı əsrdə Axalsixe yamaclarını Osmanlı imperiyası işğal etdi və burada əhali kütləvi şəkildə müsəlmanlaşdırılırdı. Kompleksə daxil olan məscid və mədrəsə də Osmanlıların ağalığı dövründə tikilmişdir. 1828-1829-cu illərin Rusiya-Türkiyə müharibəsi nəticəsində Axalsixeyə ruslar yiyələndilər.

| **Dərsin mövzusu** | **3.3. Samsxe-Cavaxeti əhalisinin rəngarəngliyi** |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Samsxe-Cavaxeti əhalisinin milli və dini tərkibi ilə tanış olur, mədəni- dini rəngarəngliyi barədə mülahizə yürüdür. |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 2 (II) 12 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Samsxe əhalisinin milli və dini rəngarəngliyi barədə mini mühazirə.(5 dəq)<br>**Fəallıq 2.** Dərsliyin mətni ilə tanış olsunlar, dini və etnik dəyişikliklərin nəticələrini təhlil etsinlər. (10 dəq)<br>**Fəallıq 3.** Müəllim şagirdlərə aşağıdakı şəkildə tapşırıq verir: təsəvvürünüzə gətirin ki, Samsxe-Cavaxeti barədə oçerk hazırlayırsınız, hansı faktdan və hadisədən istifadə edərdiniz? (5 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – təsvir hazırlasınlar: Samsxe sakininin bir günü. |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, fərdi |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, ağ vərəq |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Etnik cəhətcə rəngarəng region – Kartli |

**Mini mühazirə**

Samsxenin adı Cənubi Kartlidə yaşayan tayfanın, mesxlərin adından (Mesxi Mesxistan- Samsxe) götürülmüşdür. Cavaxeti ilk dəfə Urartu çarı, I Argiştin qeydlərində (b.e.ə 785-ci il) xatırlanılır. B.e.ə IV əsrdən etibarən Samsxe-Cavaxeti yeni yaradılmış Şərqi gürcü dövlətinin – İberiya (Kartlinin) çarlığının tərkibinə daxil idi. Bu region həmdə "Zemo Kartli" adlandırılırdı, çünki region Kartlinin əsas çayı olan Kürün yuxarı hövzəsini əhatə edirdi. B.e. VIII-X əsrlərdə Samsxe-Cavaxeti tarixi Cənub-Qərbi Gürcüstanda yaradılmış Tao-Klarcetinin (eynən "Gürcülərin çarlığı") Şimal əyalətini təmsil edirdi. Vahid güclü gürcü feodal dövlətinin mövcudluğu dövründə (XI-XIII əsrlər) Samsxe-Cavaxetidə gürcü mədəniyyətinin güclü ocağı formalaşdı. Sonrakı dövrlərdə Samsxe-Cavaxeti müxtəlif işğalçıların hücum obyektinə çevrildi. Bu region əvvəlcə monqolların, sonra iranlıların və osmanlıların hücumları nəticəsində güclü zərərə məruz qaldı.

XV-XVI əsrlərdə, Gürcüstanın vahid çarlığı parçalandıqdan sonra, Samsxe-Cavaxeti müstəqil gürcü knyazlığının, Samsxe-Atabəyliyinin tərkibində idi. XVI əsrdə Samsxe-Atabəyliyi Osmanlı tərəfindən işğal edildi, bunun nəticəsində isə, Samsxe-Cavaxeti burada yaradılmış "Gürcüstan vilayətində" ("Gürcüstanın regionu") birləşdi və bundan bir az sonra bu diyar Axalsıx paşalığı adlandırıldı. Bu vaxtdan etibarən, Osmanlı imperiyasının sosial-iqtisadi siyasəti ilə əlaqədar, Samsxe-Cavaxeti əhalisinin 44 məcburi

müsəlmanlaşmağı başlayır. Gürcülərin böyük hissəsi yavaş-yavaş müsəlmanlaşdı, bir hissəsi qonşu Kartli və İmereti çarlıqlarına üz tutdu, azacıq bir hissəsi isə xristianlığı qorumaq məqsədi ilə pravoslavlıqdan katolik məzhəbinə keçdi. 1828-1829-cu illərin və sonrakı dövrün Rusiya-Osmanlı müharibələrinin (1853-56, 1877-78) nəticəsində, Samsxe-Cavaxeti Rusiya imperiyasının tərkibinə daxil oldu. Bu müharibələrdə, şəxsən Cənubi Qafqazın cəbhələrində Rusiyanın hərbi qüvvələrinin qazandığı qələbələrdə "gürcü milisi" (xalq qoşunu) əhəmiyyətli rol oynadı; lakin Osmanlı üçün qədim Gürcüstana mənsub olan ərazilərin geri qaytarılmasının hüquqi əsasları orta əsrlər Gürcüstanının çarlıq sərhədlərinin və onun yerli əhalisinin yayılmasının tarixi başlanğıcı hesab oluna bilərdi.

Rusiya-Osmanlı müharibələri nəticələrində müsəlmanlaşmış əhalinin bir hissəsi Türkiyəyə köçdü. Onların yerində Rusiya hakimiyyəti Türkiyədən erməni əhalisini gətirib yerləşdirdi, Rusiyadan isə – nisbətən az miqdarda bir rus xristian sektasının nümayəndələrini, duxoborları (bu axırıncıların əsas hissəsi Sovet İttifaqı dağıldıqdan sonra buraları tərk etdilər) məskunlaşdırdı. Gürcüstanın birinci müstəqil respublikası dövründə (1918-1921-ci illər) Samsxe-Cavaxetidə Gürcüstan hakimiyyətinin yurisdiksiyası yaradıldı. 1922-ci ildən etibarən Samsxe-Cavaxeti Sovet ittifaqının tərkibindəki Gürcüstan müttəfiq respublikasının regionlarından biri idi. İkinci Dünya müharibəsi zamanı 1944-cü ildə Sovet rejimi tərəfindən burada qalmış müsəlman əhali, hansıların ki, əksər hissəsi etnik gürcülərdən – mesxlərdən ibarət idi, məcburən orta Asiyaya sürgün edildilər. Onların yerinə mütəşəkkil şəkildə Zemo İmeretidən və Racadan dağlıq kəndlərin sakinləri yerləşdirildi. XX əsrin 80-ci illərindən etibarən burada Yuxarı Acarıstandan gəlmiş ekomiqrantlar məskənləri də peyda oldu.

Samsxe-Cavaxetidə həm ilkin xristian, eləcə də xristianlıq dövrünün abidələri, kilsələri və qala-istehkamları olduqca çoxdur. B.e.ə. II minilliyinin meqalit tikililəri və başqa yerlərdəki Saroda, Abulda, Şaorda, Cikianidə olduqca nəzərə çarpandır. Eləcə də xristian dövrünün abidələri xüsusi ilə rəngarəngdir. Bunlar monastır kompleksləri – Saparadan, Aqaradan, Fokadan, ayrıca duran 45 kilsədən ibarətdir: Zarzma, Qaveti, Kumurdo və s. qala-istehkamlar- Adzğuro qalası, Okrossixe, Tumoqvi qala-şəhəri, Xertvisi qalası; qayalıqda düzəldilmiş komplekslər – Vardzia, Vani mağaraları (Samsxe-Cavaxeti yol göstəricisi, 2012: 18).

Cavaxeti, Mesxeti ilə birlikdə, Gürcüstanın əhəmiyyətli guşələrindən biridir, hansının ki, tarixi bizim vətəndaşlarımızın böyük hissəsi üçün az məlumdur, qeyri - gürcü əhali üçün isə eybəcərləşdirilmiş şəkildə çatdırılmışdır. Gürcü elmi ədəbiyyatında Cavaxetinin tarixi məsələləri kifayət qədər yaxşıca aydınlaşdırılmışdır. Gürcüstanın bugünkü regional bölünməsinə əsasən Cavaxeti Samsxe-Cavaxeti regionuna daxildir və bunları əhatə edir: Axalkalakinin, Ninodzmindanın, qismən Aspindzanın və Borjomi rayonlarının ərazilərini. Tarixən Cavaxeti Cənubi Gürcüstanın nisbətən geniş ərazilərini əhatə edirdi və əsrlər boyu ölkənin cənub qapısı hesab edilirdi. Cavaxetinin ərazisi lap qədim zamanlardan insan məskənləri ilə dolu idi. Bunu həmin ərazilərdə tapılmış paleolitik, mezolitik və neolitik abidələr də təsdiq edir. Antik mənbələrdə gürcü əyalətlərinin adları xatırlanılır: "Katarza" yəni "Klarceti", "Odzrxe" şəhər, bugünkü aşağı Abastumaninin ərazisi. "Odzrxe" Samsxenin, yəni Mesxetinin qədim adıdır, "Zabaxa" isə Cavaxetinin ən qədim adıdır. Deməli, Cavaxlar qədim gürcü tayfası "Zabaxlar"ın sonrakı nəsilləridir, lakin, Pavle İnqoroğvanın mülahizəsinə görə, Cavaxi qədim gürcü tayfa adı- Taox ilə əlaqədardır. Taoxlar Diaoxin (Taonun) əsas əhalisini təşkil edirdilər və bugünkü Türkiyənin şimal-şərq, cənubi Gürcüstan, o cümlədən, Cavaxeti ərazisində yaşayırdılar. Onun fikrincə, Tao və Cavax arasında aralıq forması Caoxi, Cavaxi (Berdzenişvili, 1975) olmalı idi. Urartu çarı I Arqiştin yazılarında, hansılar ki, qədim il qeydə alınmasının 785-ci ilinə aiddir, işğal olunmuş ərazi kimi Klarceti, Samsxe və Zabaxa, yəni Cavaxeti, Diaoxi (Tao) xatırlanılır. Bu ərazilər sadalanan ölkələrlə sərhədlənirdi və cənubdan Kürün mənbəyinə qədər yayılırdı. Leonti Mroveliyə əsasən, Cavaxeti əfsanəvi başçısı, Msxetosinin oğlu Cavaxosa mənsub idi.

“Pərvana gölündən Kürün mənbəyinədək” adlanırdı bu ölkə. Elə onlar məhz bu ərazilərdə iki qala-şəhər tikmişlər: Dzunda və Ərdahan, eynən Kaclar şəhəri. Həmin ölkəni Parnavazın çarlığı dövründə (b.e.ə IV-III əsrlər) çar tərəfindən təyin edilmiş Eristavi idarə edirdi, o, Dzundada otururdu. Tarixən Cavaxeti yuxarı və aşağı hissələrə bölünürdü. Kvemo Cavaxetinin inzibati-ərazi vahidlərini Kürün qolları olan çaylar və dərələr, Niali və Buzmaretinin dağlıq yaylaları əhatə edirdi. Onların hər birinin özlərinin dini və inzibati mərkəzləri var idi, lakin hamısı yenə də Dzundaya tabe olurdu, sonralar isə Tmoqvinin idarəedicisinə. Zemo Cavaxetidə isə, harada ki, coğrafi cəhətcə kiçik-kiçik çayların birləşməsi funksiyası böyük və kiçik dağların sərhədləndiyi göllər yerinə yetirirdi, inzibati ərazi vahidlərinin sərhədlənməsi bu göllərin (Sağamoy, Xançal, Karcaxi, Pərvana, Tabadzğuri və s.) ətəklərində yerləşmiş kəndlərlə yaradılmış balaca “ölkələr” nəzərə çarpırdı. Kartli çarlığına (b.e.ə. III əsr, b.e.ə. VI əsrin 30-cu illəri) Cavaxeti, Kola və Ərdahan Dzunda eristaviliyi daxil idi. Dzunda, Okrdze və Klarceti ertistavlıqları birlikdə tarixi Yuxarı Kartlini təşkil edirdi. “... Zemo Kartli, yəni Mesxeti, Samsxe Cavaxetidən başlamış Taoya qədər bir inzibati vahidi, eristavlar-eristavını və Samtavrosunu təşkil edirdi...” (Cavaxişvili..., 1989: 45). O dövrdə Kartli çarlarının üç iqamətgahı var idi: Msxeta (yaz və payız), Qaçiani(qış) və Dzunda (yay). Cavaxeti – bu region Gürcüstanın müqəddəs guşəsidir, haradan ki, Gürcüstana Müqəddəs Nino ayaq basmışdır, Pərvanadan Msxetaya qədər piyada gəlmişdi, xristian dinini yaymağa başlamışdı və məhz onun fəaliyyəti nəticəsində çar Mirian 327-ci ildə xristianlığı dövlət dini elan etmişdi.

Cavaxeti üçün 737-ci il xüsusi ilə ağır olmuşdur, bu zaman ərəb qoşunları Murvan Qurunun (Kar) başçılığı bu ərazilərə soxulmuşdur. Bu zaman Cavaxini yerli əhalinin əhəmiyyətli hissəsi tərk etdi. IX əsrdə Quaram Mampal, hansı ki, Kür dərəsinə daxil oldu, Cavaxetini, Trialetini, Taşiri, Abotsini, Ərdahanı ələ keçirdi və Cavaxeti adlanan iri feodal knyazlığını yaratdı (Cavaxişvili, 1948: 115, 342 – 350, 578). Cavaxeti çarlıq ölkəsinə çevrildi və sonrakı əsrlərdə də onu çar tərəfindən təyin olunmuş eristavlar idarə edirdilər (Kekelidze, 1951: 84). Sonrakı dövrdə Cavaxeti Samsxe ilə birlikdə Gürcüstanın nəinki təkcə mədəni mərkəzi, eyni zamanda siyasi gücünün istinad nöqtəsinə çevrildi. Bu vəziyyət XVI əsrin sonuna qədər davam etdi. XVI əsrin axırında bütün Samsxe atabəyliyini, Cavaxeti də daxil olmaqla, Osmanlılar işğal etdilər. Osmanlılar işğal etdikləri Gürcüstanın həmin hissəsini “Gürcüstan vilayəti” adlandırdılar, bu vilayətə Cavaxeti paşalığı da daxil idi. Samsxenin sahibləri olan Osmanlı oranı “Axalsıx paşalığı” elan etdi və bu gözəl regionu ana vətəndən ayırdı. Axalsıx paşalığı 24 tayfaya, yəni sancağa böləndü və onların hər birinin başında nəsilliklə sancaq başçılarını təyin etdi.

Ölkənin siyasi və dini ekspansiyası məqsədi ilə əhalinin müsəlmanlaşdırılmasına başlandı, bu proses əvvəlcə yuxarı təbəqəni, sonra isə uzun müddətli döyüşlərlə aşağı zümrəni də əhatə etdi. XVII əsrin başlanğıcından etibarən müsəlmanlaşdırılmanın bu intensiv prosesi XVIII əsrdə də davam etdirildi və XIX əsrin başlanğıcında başa çatdırıldı. İşğalçıların təzyiqi, aydındır ki, yerli əhalinin Gürcüstanın müxtəlif regionlarına miqrasiyasına səbəb oldu. XVI əsrdə “Dəftəri-müfəssəl vilayəti Gürcüstan” əsərinin verdiyi məlumata əsasən (Cikia, 1941: 12-24), Cavaxetinin tərkibinə 9 rayon daxil idi: Xurtvisi, Meşəlik Cavaxeti, Buzmareti, Ağ şəhər, Tmoqvi, Niala körfəzi, Canbaz, Kanarbeli və Canavar qalası daxil idi, harada ki, cəmi, təqribən 450 kənd var imiş və onların hamısında yalnız gürcülər yaşayırlarmış. Aydındır ki, Gürcüstan üçün belə əhəmiyyətli guşənin itirilməsi və bu boyda insanın vətəndən ayrı düşməsinə gürcülər sən deyən asanlıqla barışa bilməzdilər. Gürcüstanın o zamankı, çarları, II Teymuraz və çar İrakli eləcə də, İmereti çarı I Solomon bir tərəfdən çalışırdılar ki, Axalsıx paşalığı ilə yaxşı münasibətlər qursunlar, hansılar ki, hələ özlərinin gürcü mənşəli olduqlarını unutmamışdılar və ikinci tərəfdən, əlverişli məqam gözləyirdilər ki, Gürcüstanın bu tarixi diyarında yenidən öz təsirlərini bərpa etsinlər. Buna baxmayaraq, onların Gürcüstanın bu qədim torpaqlarına qarşı ardıcıl siyasətləri yox idi ki, bundan da yerli və xarici düşmənlər yaxşıca istifadə edirdilər – yerli əhalini soyur və itaətə məcbur edirdilər, buraları xarabalıqlara çevirirdilər, əhali ya dilin ölçüyə gəlməyən çətinliyi – kinayəyə qoyulması

ucundan qaçır və yaxud da qəhrəmanlıq bahasına doğma torpağını qoruyub saxlayırdı. Professor Şota Lomsadzenin fikrincə, erməni məliklərinin və varlı tacirlərin sui-qəsdi üzündən az qala İrakli Kvemo Kartlini itirəcəkdi (Lomsadze, 1975: 344). İrakli tərəfindən verilmiş üstünlüklər hesabına Bolnisi-Dmanisidə yerləşdirilmiş 700 Qarabağ ermənisindən Melikabov dəstələr toplayır, Cavaxetiyə basqınlar edir, əhalini soyur, məhsulu aparır və əhalini də özləri ilə aparırdı, sonra isə zorla erməniləşdirirdi.

XIX əsrin başlanğıcından etibarən davam edən Rusiya-Türkiyə müharibələri nəticəsində, Samsxe-Cavaxeti Türkiyə ağalığından azad olundu, lakin bu yerli, məzlum gürcü əhalisinə azacıq da olsa fayda gətirmədi. Əksinə, Rusiya çarının xəyanətkar planına müvafiq olaraq, bu region yerli gürcü əhalisindən maksimum dərəcədə təmizləndi və onların yerində ermənilərin, yunanların, kürdlərin, tərəkəmələrin, rus sektantları – duxoborların yerləşdirilməsi baş verdi. Eləcə də, kazakların və alman kolonistlərinin yerləşdirilməsi planlaşdırılırdı. Hələ birinci Rusiya-Türkiyə müharibəsi (1806-1812) zamanı Rus sərkərdəsi Tormasovun bilavasitə əmri ilə, 1810-cu ildə Axalsıx paşalığından 1506 gürcü ailəsi sürgün edilmişdi. Təkcə Koteli kəndindən o zaman 112 ailəni Loriyə köçürmüşdülər, bunların əksəriyyətini zor gücünə erməniləşdirmişdilər. 1828-ci il Adrianopol sazişi ilə Rusiya Axalsıx paşalığına daxil olan 24 sancaqdan yalnız 10-nu: Kobliani, Ocrxisi (Abasdumani), Axalsıx, Adzğveri, Aspindza, Xertvisi, Axalsıx, Caraki, Potsxovi və Palakaçios (Çıldır) paşalığının tərkibinə daxil etdi. Sonralar bu regiona Rusiya Axalsıx və Axırkələk qəzalarını birləşdirdi və Potsxovi regionu adlandırdı. 1877-78-ci illərin Rusiya-Türkiyə müharibəsindən sonra Mesxetinin qalan hissələri də birləşdirildi, o cümlədən Acarıstan – Kobuleti, Şavşeti, Klarceti, Kola-Ərdahan və Taonun Şimal hissəsi-Oltisi birləşdirildi. Buradan birinci 3 region Batumi vilayəti adlandırıldı, Eruşeti, Ərdahan və Oltisi Qars vilayətinə birləşdirildi.

Fəs 2-nin ehtimal olunan cavabları: dini dəyişikliklərin nəticəsi – katoliklik, islam yayıldı; etnik dəyişikliklərin nəticəsi – erməni əhalisinin miqdarı artdı.

## Əlavə məlumat

**Şalva və İvane** “iki qardaş idilər və onlar Axalsıxdan idilər”, onlar Tamarın, Laşa Giorginin və Rusudanın dövründəki Gürcüstanın dövlət və hərbi yüksək rütbəli qulluqçuları, qoşunun önündə gedən sərkərdələr, Cavaxeti və Kari regionunun keşikçiləri, şahzadələrin qulluqçusu, yəni atabəyi, Torelilər nəslinin yeni qolları – Axalsixelilər soyadının bünövrəsini qoyanlar  idilər. Qardaşlar, göründüyü kimi onların tayı bərabəri yoxdur və tutduqları əhəmiyyətli mövqeyə görə onlar gürcü naratik və epiqrafik abidələrdə (və həm də təkcə gürcü mənbələrində deyil), demək olar ki, həmişə birgə xatırlanılır. Torelilərin əsas nəslinin birinciliyi qardaşların əlinə XII əsrin sonunda keçdi. Qamrekel Torelidən sonra Şalva və İvane Cavaxetinin birinci şəxsləri oldular. Şamxor döyüşündə gürcülər çoxlu əsir və böyük qənimət ələ keçirdilər. Şalva Axalsixeli xəlifəyə bayraq da təqdim etdi. Bayrağı çariça Tamara Gelatidə dincələn Xaxulinin Məryəm Ana ikonasına hədiyyə etdi. Qandzani yazıları bu müharibənin gedişinə aiddir, harada ki, Şalva Axalsixeli barədə oxuyuruq: “bütün düşmənlərə qarşı güclü və məğlub edilməz idi... hansı ki, aslan gücü ilə və qolunun qüvvəsi ilə İranın bütün kəndlərini viranə qoydu”. Çar qəniməti saydıqdan sonra onu mühafizə etməyi İvane Axalsixeliyə həvalə etdi, ona keşişçi qoydu”, atabəy Sərkərdəsi adını verdi. Ona həmçinin qənimət və öz ölkəsini verdi. Çariça Tamara Şalva və İvaneni bu regionun başçıları təyin etdi.

Basianidə düşərgə salmış Səlcuqların nəhəng ordusunu gürcülərin qoşunu qəflətən başının üstünü aldı. Sərkərdə Zaxari Mxarqrdzeli Şalva və İvane Axalsixeliləri mərkəzdə vuruşan döyüşçülər təyin etdi. “Başqa Torelilər” də onlarla birlikdə idilər. Basiani şöhrətli müharibəsindən sonra Şalva Axalsixeli daha yüksək rütbəyə qalxdı və o həmin baş sərkərdə vəzifəsini 1225-ci ilədək əlində saxlaya bildi. Somxitidəki Qarnisi kəndində gürcülər Cəlaləddinin sayı- hesabı bilinməyən ordusu ilə üz-üzə gəldi. Mesxlərin qoşununun önündə Şalva və İvane “adlı – sanlı sərkərdələri vuruşurdular və hünər göstərirdilər”.

İvane Mxarqrdzelinin qardaşlara münasibətdə “paxıllığı tutdu” qocalıqdan idi yoxsa başqa bir şeydən,, sürətli və düzgün qərar qəbul edə bilmədi, Axalsixelilərə köməkçi qüvvə göndərmədi. Qeyri-bərabər döyüş gürcülərin məğlubiyyəti ilə başa çatdı. Qayadan qopmuş daş Qarnisi qayalıqlarında özünə sığınacaq tapmış İvanenin üstünə düşdü və oradaca həyatına son qoydu. Şalvanı isə xarəzmlər əsr götürdülər. Cəlaləddin əsirə müvafiq hörmət göstərdi, gürcülərə qarşı döyüşdə ondan istifadə etmək qərarına gəlmişdi – “xəyanətə” və “daxildəki quruluşa görə” lakin bir ildən sonra “xristian xaçını axtarmadığına görə” onu ölümlə cəzalandırdı. Cuveynin verdiyi məlumata görə isə Cəlaləddin biləndə ki, əsir düşmüş Şalva Axalsixeli özününkülərə məktublar göndərir və Tbilisiyə hücum hazırlandığı xəbərini bildirdi, onu həmin dəqiqə öldürtdürdü. Qardaşlar vətənin müdafiəsi işinə özlərini beləcə qurban verdilər. Onların sonrakı nəsilləri də ölkə üçün böyük xidmətlər göstərmişlər və Çara sədaqətlə qulluq etmişlər, lakin yenə də Şalva və İvane Axalsixelilərin rəşadəti və “döyüş qəhrəmanlığı” Gürcüstan tarixinin səhifələrində nümunə olaraq qalmaqdadır. Deyilənlərə görə “Şavleqo” mahnısı məhz Şalva Axalsixeliyə həsr olunmuşdur.

# FƏSIL 4. QURIYA

| Dərsin mövzusu | 4.1. Quriyanın coğrafi yerləşməsi və təbii şəraitləri |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Quriyanın fiziki-coğrafi xüsusiyyətləri ilə tanış olur. Şagird xəritənin köməyi ilə ona daxil edilmiş məlumatı oxumağı bacarır. |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 4 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Xəritənin (səh. 8-9) vasitəsi ilə Quriyanın coğrafi yerləşməsini müəyyənləşdirsinlər və onunla həmsərhəd olan regionları horizont istiqamətinə əsasən müəyyənləşdirsinlər. (5 dəq)<br>**Fəallıq 2.** Cütlüklərlə dərsliyin mətni ilə tanış olsunlar və cədvəli doldursunlar (bax, cədvəl). (15 dəq)<br>**Fəallıq 3.** Yerinə yetirilmiş tapşırığın təqdimatı. (10 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə<br>**Fəallıq 5.** Ev tapşırığı – Quriyanın kurortları barədə əlavə məlumat toplasınlar |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, cütlüklərlə |
| **Resurslar** | Dərslik, xəritə, yazı taxtası tabaşir |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Quriya ilə həmsərhəd olan diyarların təbii şəraitləri və coğrafi mühiti |

Cədvəl

| Relyef | İnzibati bölünmə | İqlim | Faydalı qazıntıları | Hidroqrafiq vahidləri | Kurortların tipləri |
|---|---|---|---|---|---|
| | | | | | |

| Dərsin mövzusu | 4.3. Quriya- kurortlarla zəngin region |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Quriyada mövcud olan kurortlarla tanış olsun, onların inkişaf perspektivləri barədə mülahizə yürütsün |
| **MTP uyğunlaşma** | (II) 3 (II) 6 (II) 7 (II) 12 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Müəllim şagirdlərdən xahiş edir ki, bu suala cavab versinlər, Quriyada hansı kurortlar yerləşir və cədvəli doldursunlar (bax, cədvəl). Şagirdlərin ona qədər bu kurortlar barədə məlumatları olmalıdır, çünki ev tapşırığı qismində verilmiş əlavə məlumat toplayarkən bunlar barədə məlumat almışlar. (5 dəq)<br>**Fəallıq 2.** Qrup işi sinfi iki yerə bölür. Hər qrupa bir kurortun adı verilmişdir. Onlar məlumat bukleti hazırlayırlar və öz üstünlüklərini əsaslandırırlar. Qruplardan biri ekspertlər qrupunu təmsil edir, hansı ki, müəyyənləşdirir, hansı qrup öz kurortunun üstünlüklərini daha yaxşı təsvir edə bilmişdir. (15 dəq)<br>**Fəallıq 3.** Yerinə yetirilmiş tapşırığın təqdimatı. (15 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə və özünü qiymətləndirmə. (5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – bu mövzuda esse yazın: əgər mən Quriyanın qubernatoru olsam. |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, qruplar |
| **Resurslar** | Ağ vərəqlər, Markerlər, Dərslik |
| **Qiymətləndirmə** | Qrup işi, özünüqiymətləndirmə rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Quriyanın kurortları və fiziki-coğrafi şəraitləri barədə məlumat |

Cədvəl

| Dağ kurortları | Dəniz kurortları | Dağ-xizək |
|---|---|---|
| | | |

## Əlavə məlumat

**Rubrika-bu maraqlıdır**

Quriyada yerləşən kilsələr barədə üç gözəl əfsanə vardır. Onlardan birincisinə əsasən, Aci kəndində div insanları narahat edirmiş. Camaat kömək üçün Müqəddəs Giorgiyə müraciət edir. Müqəddəs Giorgi divi öldürür və daşa döndərir. Təşəkkür əlaməti olaraq bu yerdə məbəd tikmişlər. Acidzğali çayının sahilində bu gün belə böyük qala qalmaqdadır, hansını ki, qurulilər “div daşı” adlandırırlar.

İkinci əfsanə Cixeti monastırına aiddir. Sən demə orada fəaliyyət göstərən müqəddəs anaları susuzluq o dərəcədə narahat edirdi ki, yeni monastırın tikilməsi üçün başqa yerin seçilməsini qərara alırlar. Seçimi üç göyərçinə etibar edirlər. Göyərçinlər füsunkar yer seçirlər və həqiqətən yeni monastır tikirlər, harada ki, nəinki təkcə ibadət edirdilər, həm də yazıb-oxumaq və ev işlərini də öyrədirdilər.

Üçüncü əfsanəyə əsasən, Çariça Tamaranın özü yunan ustalarını gətizdirmiş və iki kilsə tikməyi əmr etmişdir. Birini Atsana kəndində tikməli idilər, o birini isə Aketidə. Atsana monastırını ustanın özü tikir, Aketi monastırını isə onun şagirdi. Çariça Tamara şagirdin tikdiyi monastrı daha çox bəyənir, buna görə də hirslənmiş usta özünün şagirdini cəzalandırır.

Quriyalılar bayramlarında lap qədim zamanlardan müxtəlif ayinləri var imiş. Onların bir hissəsi bu günədək gəlib çatmamışdır. Məryəm Ananın adına qutab Quriyalılara mənsubdur və doğumdan bir gün əvvəl gecələr onu bu gün də bütün quriyalı ailələrində hazırlayırlar. Quriyada qədimdə Yeni ili, eynən Kalandanı çiçilaki ilə bəzəyirlər, ağac nimçələrə xaçapuri düzürlər, donuz başı, şirniyyat qoyurlar və şərabla sağlıqlar deyib yeyib-içirlər.

**XIX əsrin axırında,** quriyalı atlılarının bir qrupu xaricə yollandı. Onlar İngiltərədə məşhur Amerika şoumeni, Bafalo Bilkoudisin “Wild West show” qoşuldular – vəhşi Qərb şousuna, 1893-cü ildə isə Qurulilər ABŞ-a getdilər. Qurulilər “Rus Kazakları” adı ilə 30 ildən çox müddət ərzində Bafalo Bilisin və başqa sirklərin və şouların arenalarında çıxış edirdilər, onlar dünya şöhrəti qazandılar. Qərbin tanınmış məşhur tədqiqatçısı və tarixçisi Di Braun yazır. “at belində çapmağı rodeoya öz başlarından keçmiş kazaklar gətirdilər. Kazakların başgicəlləndirici fəndlərlə maraqlanan kovboylar bu fəndləri mənimsədilər və sonralar Amerika rodeosunda öz variantlarında təqdim etdilər”. Amerika qəzetləri gürcülərin təkrarolunmaz cıdırları barədə yazırdılar: “onlar yəhərdə əlləri üstündə və ayaq üstə duraraq at çapırdılar”. “Kazak” atlıları barədə məlumat tezliklə çar ailəsinin qulağına gəlib çatdı. 1892-ci il yanvarın 25-də gürcülər İvane Maxaradzenin təşəbbüsü ilə, birinci xanımın, çar ailəsinin və başqa zadəganların qarşısında təqdim olundular. Tamaşa ilə həyəcanlanmış birinci xanım Viktoriya onlara qızıla tutulmuş albom bağışladı, bu albomda onların tamaşalarını əks etdirən fotoşəkillər yerləşdirilmişdir.

## FƏSIL 5. RACA-LEÇXUMI

| Dərsin mövzusu | 5.4. Raca-Leçxumi əhalisinin yaşayış üslubu |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Racadan əhalinin miqrasiyası səbəbləri ilə tanış olur.<br>Şagird miqrasiya prosesinin mümkün nəticələrini təhlil edir |
| **MTP ilə nail olunası nəticələr** | (II) 3 (II) 4 (II) 6 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Müəllim şagirdlərə bu sualla müraciət edir: əhalinin miqrasiyasını hansı səbəblər şərtləndirə bilər. Ehtimal olunan cavablar lövhəyə yazılır. (5 dəq)<br>**Fəallıq 2.** Şagirdlər xalq şeiri ilə tanış olur və o cümlələri köçürürlər, harada ki, racvellərin öz torpaqlarını tərk etmə səbəbləri əksini tapmışdır. Müqayisə etsinlər, onların söylədikləri fikirlər həmin cümlələrlə uyğun gəlirmi. (5 dəq)<br>**Fəallıq 3.** Mətn üzərində iş. Bütün o məşğuliyyətləri köçürsünlər, hansılar ki, racvellər kənar işlərə gedirdilər və ağıllı xəritəni doldursunlar (5 dəq)<br>**Fəallıq 4.** Raca barədə İlya Çavçavadzenin mülahizələri ilə tanış olsunlar və təhlil etsinlər, İlya hansı problemlərə diqqət yetirir. (10 dəq)<br>**Fəallıq 5.** Diskussiya – əhalinin kənar işlərə getməsinin hansı müsbət və ya mənfi nəticəsi ola bilər. (10 dəq)<br>**Fəallıq 6.** Qiymətləndirmə<br>**Fəallıq 7.** Ev tapşırığı – Gürcüstandan miqrasiya prosesləri barədə əlavə məlumat toplasınlar |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, fərdi |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir |
| **Qiymətləndirmə** | Diskussiyanın qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Raca-Leçxuminin fiziki-coğrafi mühiti, Raca-Leçxumi təsərrüfatı |

Birinci fəallığın ehtimal olunan cavabları: müharibə, ağır şəraitlər, aclıq, təbii fəlakətlər. Elə buradaca terminin – miqrasiyanın əhəmiyyətini dəqiqləşdirin.

Şeirdə sadalanan səbəblər: şəxsi şum torpağımız yoxdur, nədə dağda biçənəyimiz.

Məşğuliyyət, hansılarla ki, kənar işlərə gedən zaman racvellər yerinə yetirirdilər: çörəkçi, mişarlayıcı, üzüm becərmək, ticarət, kömürçü, dülgər.

İlyanın fikrincə, Raca üçün əsas problem əhali axınıdır.

Diskussiya zamanı ehtimal olunan arqumentlər: müsbət nəticə – işlə təmin olunacaqlar və onların qazancları olacaqdır, mənfi – region əhalidən boşalacaqdır.

| Dərsin mövzusu | 5.5. Racvellər – gürcü ticarətçiləri |
|---|---|
| **Dərsin məqsədi** | Şagird Racvellər ilə osetinlər arasında qarşılıqlı ticarət əlaqələri ilə tanış olur.<br>Şagirdlər qarşılıqlı ticarət əlaqələrinin mehriban qonşuluq əlaqələrinə müsbət təsirini təhlil edirlər |
| **MTP ilə nail olunası nəticələr** | (II) 3 (II) 6 (II) 7 (II) 9 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Müəllim şagirdlərdən xahiş edir ki, yada salsınlar, Racvellər Gürcüstan çərçivəsindən kənar işlərə hara gedirdilər (cavab – Şimali Qafqaz). (2 dəq)<br>**Fəallıq 2.** Fiziki – coğrafi xəritədə (birinci hissə, səh. 86-87) aşırımı tapsınlar, hansı aşırımla ki, Racvellər Şimali Qafqaza keçirdilər. (5 dəq)<br>**Fəallıq 3.** Racvellərin və osetinlərin qarşılıqlı əlaqələri barədə mini mühazirə (8 dəq)<br>**Fəallıq 4.** Racvellər ilə osetinlər arasında qarşılıqlı əlaqələr barədə – ticarət və şəxsi qudalıq haqqında T diaqramını doldurun. Təsvir etsinlər, şəxsiqudalıq deyəndə nə nəzərdə tutulur. (10 dəq)<br>**Fəallıq 5.** Arqumentləşdirilmiş mülahizə – belə bir düşüncə mövcuddur ki, millətlər arasında mehribanlıq qonşuluq və sülh mühitinin yaranması yalnız dövlətin borcudur. Bu təkliflə ya razılaşın, yada onu rədd edin. Şagirdlər öz mülahizələrini şifahi şəkildə bildirirlər. (15 dəq)<br>**Fəallıq 6.** Qiymətləndirmə (5 dəq)<br>**Fəallıq 7.** Ev tapşırığı – Gürcüstanda xalqlar arasında əmin-amanlıq şəraitində yaşamaq barədə əlavə məlumat toplasınlar. |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, xəritə |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Racanın coğrafi yerləşməsi, təsərrüfat sahələri, kənar işlərə getmək səbəbləri |

Mini mühazirə zamanı racvellər ilə osetinlər arasında qarşılıqlı əlaqələr barədə paraqrafda mövcud olan məlumatdan istifadə edin. T diaqramının bir sütununda ticarət əlaqələrini əks etdirən ifadələri yazın: ev heyvanları ilə ticarət edirdilər, ya yuna, yapıncıya dəyişirdilər. İkinci sütunda isə şəxsiqudalıq, məsələn övladlarını böyütmək üçün qoyurdular.

Arqumentləşdirilmiş mülahizə zamanı faktiki səhvi ifadə etməyən, istənilən məntiqi cavab hesaba alınacaqdır.

## Əlavə məlumat

**(Raca-Leçxumi)**

**Rubrika – bu maraqlıdır**

**Nikordzminda məbədi** eyni adlı kənddə Ambrolauri rayonunda yerləşir. Məbədin üzərindəki yazı ondan xəbər verir ki, bu məbəd XI əsrdə tikilmişdir.

**Tluği kəndində,** dəniz səviyyəsindən 1100 metr yüksəkliyində Texisa müqəddəs Giorgi monastrı yerləşir. Əfsanəyə görə, bir nəfər kəndlinin arabasını oğurlayırlar. Oğru sən demə əvvəlcə bunu boynuna almır, ziyarətgahın yanında isə qorxur və boynuna alır. Elə buna görə də bu məbədi Texisa (sınmaq) adlanır.

Xvançkara dünya brendli şərabdır, hansı ki, yalnız və yalnız Xvançkara kəndində yetişən Aleksandr növlü üzümdən hazırlanır və doğrudan da unikaldır.

Leçxumi tarixi-memarlıq abidələrinin çoxluğuna görə seçilən regionlardan biridir. Bu cəhətdən bu regionun vizit vərəqi Xvamli dağıdır, hansı ki, qədim tarixi xəzinə saxlanan yer idi. Burada Qveso qalasının xarabalıqlarını görərsiniz, Meri qalasını, gözəl Laylaşi kəndini seyr edə bilərsiniz.

Dağın Balneoloji- iqlim kurortu olan **Udzera** Yuxarı Racada, Onidən 15 km aralıda yerləşir. Kəndin adının yaranması böyük gürcü Çariçası Tamarın adı ilə əlaqədardır: sən demə Tamar öz əməli ilə birlikdə çarlıqda səyahətə çıxıbmış. Racaya çıxmış çar Udzeraya dönür və onun gözəlliyi ilə əylənərək deyir: nə təsvirə gəlməz gözəllikdir. Necə ki, söyləyirlər "təsvir olunmaz" zaman keçdikcə dəyişiklikliyə məruz qaldı və "Udzera" adı qaldı. Kəndin başında Broli dağı boylanır, burada kristal dağın büllur parçaları tapılır. Udzerada torpağın səthinə 28 növ təbii mineral su çıxır. Onlar barəsində hələ Vaxuşti Baqratiyoni öz əsərlərində yazırdı. Bunlardan biri, Qveriti adı ilə tanınan bulağı XIX əsrin sonunda Qamğrelidze qardaşları tapmışlar. Onların mülkində qaynayan su qardaşlardan birinin kəskin mədə ağrısından müalicə etmişdir. Qamğrelidzelər Tbilisidən tibbi komissiyanı dəvət edirlər. Məlum olur ki, Qveriti bulağının nadir müalicəvi xüsusiyyətləri var imiş. 1913-1914-cü illərdə Fransanın kommersiya cəmiyyətlərindən biri Ucera suyunu Avropaya ixrac etmək ilə maraqlandı və Qamğrelidzelərə 45 illik icarə təklif etdi. Qardaşlar bu təklifə bu şərtlə razı oldular ki, yerli əhali sudan pulsuz istifadə edə biləcəkdi, bu təklif isə fransızlar üçün qəbul edilməz oldu və razılaşma pozuldu. Bu gün Ucera mineral suları həm içmək, həmdə hamamlarda vannalar üçün istifadə olunur. Kurortun füsunkar iynəyarpaqlı şamlığının və qarışıq ağaclı meşələrinin (şam, cökə, palıd, fıstıq, göyrüş, şabalıd və s.) müalicəvi effekti vardır.

Təbiət gözəlliyi və mineral suların bolluğu ilə məşhur olan **Şovinin** müalicə əhəmiyyəti barədə lap qədim zamanlardan tanış idilər və o vaxtlardan başlayaraq yaxın kəndlərin sakinləri və səyahətçilər, hansılar ki, Racadan Şovi və Mamisoni aşırımlarından keçərək Samaçabloya gedirdilər. Şovi sularının elmi sürətdə öyrənilməsinə və kurort tikintisinə 1923-cü ildən başlanılır. Sovet Hakimiyyəti dövründə burada yaraşıqlı sanatoriyalar və istirahət evləri tikildi, gürcü ornamentləri ilə bəzədilmiş məşhur Kurzali binası da onların arasında idi. Şovi alpinizmin, xizək idmanının, raftinq həvəskarları üçün maraqlı yerdir. Məlumdur ki, Qafqazın bu hissəsində 4000 metrdən daha artıq yüksəklikdə bir neçə elə zirvələr vardır ki, oralara hələ insan ayağı dəyməmişdir. Gözəl mağaralar, buzlaqlar, göllər Racanın füsunkarlığıdır. Ən böyük göl Şaora dəryaçasıdır, hansı ki, XX əsrin ortalarında süni sürətdə yaradılmışdır.

## FƏSIL 6. ABXAZIYA

| Dərsin mövzusu | 6.4. Abxaziyanın əhalisi |
|---|---|
| **Dərsin məqsədi** | Şagird:<br>Abxaziya əhalisinin dəyişməsi səbəbləri ilə tanış olsun<br>Öyrənsin, qədim və yeni abxazlar arasında hansı fərqlər vardır<br>gürcü-abxaz əlaqələri barədə mülahizə yürütsün |
| **MTP ilə nail olunası nəticələr** | (II) 1 (II) 3 (II) 12 (II) 13 (II) 14 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Şagirdlər Abxaziya əhalisi barədə mətn ilə fərdi sürətdə tanış olurlar. (10 dəq)<br>**Fəallıq 2.** Şagirdlər qruplara bölünürlər və alınmış məlumat əsasında mövzu üzərində işləyirlər – gürcü- Abxaziya qarşılıqlı əlaqələri.(15 dəq)<br>**Fəallıq 3.** Yerinə yetirilmiş tapşırığın təqdimatı. (12 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə<br>**Fəallıq 5.** Ev tapşırığı – bu gün mövcud olan gürcü-Abxaz qarşılıqlı əlaqələri barəsində məlumat toplasınlar. |
| **Qiymətləndirmə** | Ümumi sinif, qruplar |
| **Resurslar** | Dərslik, ağ vərəqlər |
| **Sinfin idarəedilməsi** | Qrup işi və təqdimatın qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Abxaziyanın təbii şəraitləri və gündəlik həyatı |

Mətn üzərində işləyən zaman şagirdlərə məsləhət görə bilərsiniz ki, yekunlaşdırma və yazılar metodundan istifadə etsinlər: məlumatın bir hissəsini silsinlər, bir hissəsinin sözlərini dəyişdirsinlər və bir hissəsini saxlasınlar. Abxaziyanın etnik rəngarəngliyinə, gürcü dilinə və mədəniyyətinə təsirinə diqqət yetirsinlər.

| Dərsin mövzusu | 6.5. Abxaziyada mədəniyyət abidələri |
|---|---|
| Dərsin məqsədi | Abxaziyanın mədəni irs abidələri ilə tanış olsun.<br>Onları mühafizə etmək zəruriyyətləri barədə mülahizə yürütsün.<br>Abidəni tarixi mənbə kimi müzakirə etsin |
| MTP ilə nail olunası nəticələr | (II) 1 (II) 9 (II) 13 (II) 14 |
| Dərsin gedişatı | **Aktivlik 1.** Abxaziyada mövcud olan mədəniyyət abidələri barədə mini mühazirə. (5 dəq)<br>**Aktivlik 2.** Mətn üzərində qrup işi. Şagirdlər dərsliyin mətni ilə tanış olurlar və cədvəli doldururlar: bilirdim, başa düşdüm, bilmək istəyirəm. (10 dəq)<br>**Aktivlik 3.** Şagirdlər aşağıdakı mövzu üzrə esse yazırlar: abidələr nədən xəbər verir (15 dəq)<br>**Aktivlik 4.** Yazlı tapşırığın təqdimatı. (10 dəq)<br>**Aktivlik 5.** Qiymətləndirmə<br>**Aktivlik 6.** Ev tapşırığı – Abxaziyanın mədəniyyət abidələrinin bugünkü vəziyyəti barədə əlavə məlumat toplasınlar. |
| Qiymətləndirmə | Ümumi sinif, qrup işi |
| Resurslar | Dərslik, ağ vərəqlər |
| Sinfin idarəedilməsi | Qrup işi və təqdimatın qiymətləndirilməsi rubrikası |
| Əvvəl qazanılmış bilik | Abxaziyanın təbii və mədəni rəngarəngliyi barədə məlumat |

Abxaziya ərazisində gürcü mədəniyyətinin və memarlığının gözəl abidələri yerləşmişdir: Tamara körpüsü, Baqrat qalası, Bzipi və Qaqra qalaları. Vahid Gürcüstanın birinci çarı, III Baqratın dövründə Bedia monastırı tikilmişdir. Suxuminin yaxınlığında, İveriya dağında Svimon Kananeli adına məbəd İveriya dağında yerləşir, Dranda kəndində ucaldılmış məşhur Dranda kilsəsi bu yerlərin yaraşığıdır. Afoni dağında fəaliyyət göstərən rahiblər tərəfindən yaradılan yeni Afoni monastırı diqqəti çəkir. Müqəddəs Giorgi adına İlori məbədi İlori kəndində yerləşir. Məryəm ananın hüzur məbədi Lixani kəndində yerləşir. Zaman və müharibələrə dözən və bu günə qədər gəlib çatmış Mokvi, Miusera və Laşkendari məbədləri Abxaziyanın görməli yerləridir.

Yazılı tapşırığın yerinə yetirilməsi zamanı, şagirdlər arzu olunandır ki, diqqəti o fakta yönəltsinlər, abidələr mədəni irsin inkar edilməz faktıdır və tez-tez keçmiş haqqında ondan çox məlumat verir, nəinki yazılı və ya başqa tip mənbələr.

## Əlavə məlumat

**Rubrika – bu maraqlıdır**

**Mcişta çayı haqqında əfsanə**

Dağın dəlisov Laşipse çayı aravermədən daşır və sıldırım qayalara çarpılırdı. Qayalar çayın dikbaşlığına dözə bilmədi və onu cəzalandırmağı qərara aldılar. Dağlar lərzəyə gəldi, qayalar sürüşərək dərəyə töküldü. Laşipsinin qarşısı kəsildi. Tezliklə burada füsunkar Ridza gölü yarandı.

Ritsa, Laşipsinin yaraşığı artıq gölə çevrilmiş çaya kömək göstərmək istədi və onu azad etməyi qərara aldı. Ritsa baharı gözlədi və göl ağzına qədər dolanda, daş parçalarını itələdi, itələdi, lakin ona üstün gələ bilmədi. Göl və sıldırım qayalıqlar bir-biri ilə əbəs yerə mübarizə aparırdılar. Ritsa Laşipsinin əsrdə olmasına dözə bilmədi və axırıncı gücünü topladı və öz sinəsini qabağa verdi. Yaranmış çat gölün suyuna tab gətirə bilmədi. Mcişta çoxdan idi ki, özünə işığa doğru yol axtarırdı. Nəhayət ki, özünə çıxış tapdı və sıx dumanlar altından sıyırılıb çıxan duman ilə bəzəndi. Mcişta çayı belə yarandı.

Bir neçə il bundan əvvəl Bedia məbədinin "restavrasiya işləri" başlandı, lakin bu iş abidə üçün təhlükəli – zərərli ola bilər. Monastırda çəkilmiş video kadrlardan görünür ki, video ilə məbədin divarları və III Baqratın freskası çəkilmişdir.

**Pisunda** lap qədim zamanlardan xristianlığın güclü ocaqlarından biri idi. Onun mərkəzində X əsrin gürcü memarlığının abidəsi – **Pisunda yepiskopluğunun kafedral məbədi ucalır.** Bu abidə xaçlı-kümbəzli tikilidir. Daşdan və kərpic cərgələrinin bir-biri ilə əvəz olunması ilə ucaldılmışdır. Kümbəz ibadət yerinin divarları üzərinə döşənmiş şvellerlər və iki dirək üzərində bərkidilmişdir. Son zamanlar intensiv restavrasiya işləri başa çatdırıldı, buna görə də köhnə rəsmlər məhv edildi. Bu məbəd eləcə də Abxaziya ərazisində yerləşən başqa abidələr kimi gürcü memarlığının inkişafına üzvü sürətdə qoşulmuşdur.

İndiki yeni Afoni ərazisində **Anakopiya müqəddəs Svimon Kananeli kilsəsi** yerləşir, hansı ki, qalanın ərazisində tikilmişdir, axırıncı dəfə 1991-ci ildə təmir olunmuşdur, lakin onun kümbəzi təmir edilməmişdir, buna görə də tikilidən yağış yağır və freskaların indiyədək qalmış fraqmentləri zədələnir. Gürcü mənbələrinin verdikləri məlumata görə, burada Gürcüstanda xristianlığın ilk yayıcılarından biri olan Svimon Kananeli dəfn olunub. Yeni Afoni müqəddəs Panteleymon monastırı da burada yerləşir.

**Müqəddəs İoane Okropiri monastırı** Suxuminin şimalında, Koman kəndində, müqəddəs suların yamaclarında X-XI əsrlərlə tarixlənir. Bu məbədi dağıtmış və burada mövcud olan müqəddəs ibadət yerlərini məhv ediblər. Monastrı Abxaziya müharibəsindən əvvəlki illərdə bərpa ediblər. Müqəddəs İoane Okropirinin Sarkofaqı, müqəddəs Vasiliskonun qəbri burada yerləşir. Bu ümumi xristian kilsəsinin müqəddəslərdən müqəddəs yeridir.

**Abxaziyada, Qara dənizin sahillərində yunanlar** antik dövrdə çoxlu şəhərlər yaratdılar. Onlar arasında ən tanınmışı Dioskuriyadır (indiki Suxumi), hansının ki, hissəsini müəyyən vaxt ərzində su basmışdır.

XX əsrin 50-ci illərində arxeoloqlar Abxaziya sahillərində Qara dəniz dibinin öyrənilməsinə başladılar və bu bir çox maraqlı əşyanın tapılması ilə, o cümlədən Şori ağac qabı, Dioskuriya sikkələrin və b.e.ə. V əsr dövründəki mərmər qəbrin stellajını tapmışlar ki, bunun da üzərində qadın və uşaq təsvirləri var imiş.

Abxaziya ərazisində 6 qoruq vardır, harada ki, 2000-dən artıq növ bitki böyüyür. Onlar arasında bir çox elə bitkilər vardır, hansılar ki, əvvəllər geniş yayılmışdı və bu gün orda-burda qarşıya çıxır. İlk növbədə Pisunda şam ağaclarını qeyd etmək lazımdı. Məhz bu şamın latın adından Pisundanın antik adı Pitiunti yaranmışdı.

# FƏSIL 7. TBILISI

| Dərsin mövzusu | 7.3. Tbilisi əhalisinin etnik tərkibi |
|---|---|
| **Dərsin məqsədi** | Şagird:<br>Tbilisi əhalisinin etnik tərkibi ilə tanış olur.<br>Miqrasiya proseslərinin şəhər həyatına təsirini təhlil edir.<br>Multietnik və çoxmədəniyyətli şəhərin xüsusiyyətləri barədə mülahizə yürüdürlər. |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 8 (II) 9 (II) 12 (II) 13 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Dərs Tbilisi barədə Uordropun sözləri ilə başlanır: sual: bu sözlərdən hansı nəticəni çıxarmaq olar və bunlar həqiqətə nə dərəcə uyğundur. (5 dəq)<br>**Fəallıq 2.** Şagirdlər almanların buraya köçürülmələrinin tarixi ilə tanış olurlar və o barədə mülahizə yürüdürlər, almanlar Tbilisinin gündəlik həyatına hansı yenilikləri daxil etdilər. (10 dəq)<br>**Fəallıq 3.** Diskussiya təşkil etsinlər – müxtəlif millətlərin xalqlarının bir şəhərdə cəmləşməsi özünü doğruldurmu və yerli ənənələrə və mədəniyyətə təhlükə yaratmır ki. (15 dəq)<br>**Fəallıq 4.** Qiymətləndirmə.(5 dəq)<br>**Fəallıq 5.** Ev tapşırığı – Tbilisidə yaşayan müxtəlif etnik qruplar barədə məlumat toplasınlar və nəticələri sinfin qarşısında təqdim etsinlər. |
| **Qiymətləndirmə** | Diskussiyanı qiymətləndirmə rubrikası |
| **Resurslar** | Dərslik, yazı taxtası, tabaşir, ağ vərəqlər |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif |
| **Əvvəl qazanılmış bilik** | Başqa regionların etnik və mədəni rəngarəngliyi barədə məlumat |

Fəallıq 2-nin ehtimal olunan cavabları: texnoloji yeniliklər, kartof gətirdilər, emalatxanalar yaratdılar.

Ev tapşırığının yerinə yetirilməsi zamanı tövsiyə edin. İnternet resurslardan və ya köməkçi ədəbiyyatdan istifadə etməklə Tbilisidə yaşayan yunanların, azərbaycanlıların, yəhudilərin, kürdlərin, ermənilərin barəsində məlumat toplasınlar və aşağıdakı mövzuda təqdimat təşkil etsinlər: Tbilisi vari həyət.

| Dərsin mövzusu | 7.4. Tbilisi əhalisinin dini tərkibi |
|---|---|
| Dərsin məqsədi | Şagird:<br>Dini rəngarəngliyin əhəmiyyətini təhlil edir.<br>Çox dinli cəmiyyətdə dözümlülüyün, tolerantlığın əhəmiyyətini dərk edir.<br>Tbilisi əhalisinin dini tərkibi ilə tanış olur. |
| MTP uyğunlaşma | (II) 1 (II) 12 (II) 13 |
| Dərsin gedişatı | **Fəallıq 1.** Əvvəlki tapşırığın təqdimatı (bax, dərs – Tbilisinin etnik tərkibi). Şagirdlər dərk edilər ki, etnik rəngarənglik rəngarəngliyə səbəb olur. (10 dəq)<br>**Fəallıq 2.** Şagirdlər dinləri sadalayırlar, hansıların ki, nümayəndələri Tbilisidə yaşayırlar. (2 dəq)<br>**Fəallıq 3.** Mətn üzərində iş- dərsliyin mətni ilə tanış olsunlar və kult tikililərini yazsınlar. (5 dəq)<br>**Fəallıq 4.** Yunan, katolik, gürcü və lüteran kilsələrini bir-biri ilə müqayisə etsinlər. Tbilisi məscidinin özünə məxsusluğu barədə mülahizə yürütsünlər. (15 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə<br>**Fəallıq 6.** Ev tapşırığı – dini azlıqlar barədə məlumat toplasınlar və onların dini xüsusiyyətləri barədə mülahizə yürütsünlər. |
| Qiymətləndirmə | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| Resurslar | Dərslik, yazı taxtası, tabaşir |
| Sinfin idarəedilməsi | Ümumi sinif, fərdi |
| Əvvəl qazanılmış bilik | Tbilisi əhalisinin etnik tərkibi |

Müəllim üçün əlavə material

Gürcüstan katolikos – patriarxı II İlyanın və Gürcüstan kilsəsi Müqəddəs Sinodun müraciəti.

Gürcüstanın güclənməsinə və millətin birliyinə bu gün də əsas ruhanilik və covmərdlik dayaq olmalıdır. Bununla yanaşı, özünəməxsus həyatın və mədəniyyətin qoruyub saxlanılması zəruridir. Bununla Ana kilsə tərki-dünyalığı təlqin etmir və başqa ölkələrlə əlaqələrin əhəmiyyətinə azca da olsa zərər gətirmək fikrində deyildir: əksinə, hamımız yaxşı bilirik ki, bizim həyat tərzimizin formalaşmasına həm Şərq, həm də Qərb böyük təsir göstərmişdir. Bizim ənənələrimiz üçün, eləcə də dözümsüzlük və təcavüz qəbuledilməzdir. Yad millətlərin və dini cərəyanların nümayəndələrinə münasibətdə tarixən Gürcüstanda etnik və dini əlamətlərinə görə heç zaman təqib və sıxışdırma olmamışdır. Budur onun səbəbi ki, burada yaşayan başqa millətlərin və dinlərin nümayəndələri bizim torpağa məhəbbətlə yanaşır və xalqımızı sevirlər.

Patriarxlığın xəbərləri No 35.

## Əlavə məlumat

**Rubrika-bu maraqlıdır**

**Gürcüstan parlamentinin milli kitabxanası**

1847-ci ildə Qafqaz canişini Mixail Vorontsov xahiş edərək, tanınmış gürcü şairi və ictimai xadimi Vaxtanq Orbelianiyə müraciət etdi ki, özünün vəsaiti ilə kütləvi kitabxana üçün bina tikdirsin, Vaxtanq Orbeliani bu təklifə razılıq verdi və 1851-ci ildə tikili Kütləvi kitabxanaya verildi. 1850-ci ildə Mixail Vorontsov kitabxana müdiri kimi Moskvada mövcud olan Rumyantsev muzeyinin aparıcı işçisi Lüdviq de San-Tomu dəvət elədi, hansı ki, bir neçə ay işlədi. Sonra sağlamlığının pisləşməsi üzündən o, iş yerini öz oğluna həvalə etdi, oğlu 1857-ci ilə qədər kitabxanaya rəhbərlik etdi. 1852-ci ilin iyun ayından Mixail Vorontsovun sərəncamı ilə Senzura komitəsinə həvalə olundu ki, Qafqaz çərçivələrində çap olunan bütün nəşrlərin iki nüsxəsi, məcburi nüsxələr kimi, Kütləvi kitabxanaya verilməli idi.

Vorontsovun sərəncamı ilə 1852-ci ilə qədər kitabdan istifadə etmək üçün kitabxana səhər saat 10- dan saat 4-dək, 1852-ci ildən etibarən isə günün birinci saatından qaranlıq düşənədək işləyirdi. 1868-ci ildə Qafqaz canişinliyinin idarəçiliyində mövcud olan idarələrin yenidən təşkili nəticəsində Tbilisi kütləvi kitabxanası və Qafqaz muzeyi idarə etmənin vahid sisteminə birləşdirildi və "Qafqaz muzeyi və Tiflis Kütləvi kitabxanası" adlandırıldı. 1869-cu ildə kitabxananın yeni binasının tikintisi Qafqaz muzeyindən 60 metr uzaqlıqda tikilməyə başladı. 1871-ci ildə kitabxana yeni binaya köçürüldü. Qafqaz muzeyinin və Tiflis kütləvi kitabxanasının əfsanəvi direktoru Qustav Radenin ölümündən sonra kitabxananın komplektləşdirilməsi və ehtimal olunan funksiyalaşdırılması işi bir-birinə qarışdı. 1913-cü il dekabrın 3-də Tiflis Kütləvi kitabxanası Qafqaz muzeyinin elmi kitabxanasına çevrildi və bütünlüklə Qafqaz muzeyinə birləşdirildi. 1914-cü ildə Qafqaz Muzeyinin yeni binasının tikintisi ilə əlaqədar kitabxana bağlandı, fondları isə qutulara yerləşdirdilər və 10 il ərazində zirzəmilərdə saxlanılırdı.

1923-cü il mayın 30-da Xalq Komissarları Şurasının qərarı ilə Gürcüstan Dövlət Kütləvi kitabxanası Tiflis kütləvi kitabxanasına və 1918-ci ildə yaradılmış Parlament Kitabxanasının bazasına çevrildi.

Hazırda Milli Kitabxanada elektron salon fəaliyyət göstərir, nəşriyyatların guşəsi ən yeni kitablarla, təqdimat və kino-guşə, eləcə də Kartvelologiyanın elektron salonu və yeniləşdirilmiş uşaq otağı oxucuların sərəncamındadır.

2014-cü ildə, yeni salonların cərgəsinə əlavə olundu: uşaq otağı, emiqrasiya salonu, milli rəqəmsal fotosalnamə, Yazıb oxumağı Yayan Cəmiyyətin salonu, elə həmin il Milli kitabxanaya Kutaisidə də bina verildi, harada ki, milli əmanət anbarı və əcnəbi təqaüdçülərin yataqxanasının yaradılması qərara alındı.

2015-ci ildə Milli Kitabxanada daha bir neçə yeni kompleks yaradıldı: ana dili salonu, tənək və şərab kitabxanası, Abxaz kitabxanası, Kartser – Lüks, gürcü emiqrasiyasının salonu – oxu zalı, Yazıb-Oxumağı Yayan cəmiyyətin oxu zalı, Repressiya olunmuş kitab muzeyi, VI Vaxtanq adına əməkdaşların iş laboratoriyası, Cabua Amirecibi adına kabinet-ekspozisiya, elektron kitabxana "İverieli" nin iş laboratoriyası, Milli kitabxana və "Ceosel" in birgə layihəsi olan " rəqəmli foto salnamə laboratoriyası, restavrasiya və konservasiya laboratoriyası, inteqrasiya olunmuş kitabxana sistemi SİERRA- nın kabineti.

**Simon Canaşiya adına Dövlət muzeyi –** Gürcüstan muzeyləri arasında ən qədimidir. O, 1852-ci ildə Qafqaz muzeyinin bazasında yaradılmışdır. Muzeyin fondlarında bu günədək 1 200 000 eksponat, əsasən arxeoloji və etnoqrafik materiallar, gürcü zərgərliyinin, ikona yazıçılığının nümunələri və s. mühafizə olunur. Stasionar ekspozisiyalar arasında Dmanisidə aşkar olunmuş insanın əcdadlarının (hominidlərin) qalıqları sərgisi, hansı ki, 1, 8 milyon il ilə tarixlənir və Afrika qitəsinin çərçivələrindən

kənarda aşkar edilmiş insan əcdadının ən qədim nümunələrindən biri hesab olunur. Bu kəşf buna qədər mövcud olan insanın evolyusiya nəzəriyyəsini radikal sürətdə dəyişdi. Muzeydə həmçinin nümayiş etdirilir: neolit və tunc dövrünün arxeoloji tapıntılarının çox saylı materialı, xüsusi əhəmiyyətli və rəngarəng qızıl fondu fəaliyyət göstərir, harada ki, müxtəlif tarixi dövrlərin qiymətli metal və daşların unikal əşyaları təqdim olunur. Onlar arasında xristianlığa qədərki dövrün zərgərliyinin incə nümunələri xüsusi yer tutur, hansılar ki, bizim il hesablarına qədər üçüncü minilliyin ikinci yarısından bizim eranın dördüncü əsri daxil olmaqla tarixlənir. Muzeydə mühafizə olunan eksponatlar Gürcüstanın müxtəlif regionlarında: Ananuridə, Dznoridə, Martğopidə, Trialeti kurqanlarında, Vanidə, Axalqoridə, Msxetada, Jinvalidə və s. tapılmışdır.

**Tbilisinin ən qədim parklarından biri olan “Müctəhid parkı”** XIX əsrin 30-cu illərində yaradılmışdır. Kür çayının sol sahilində, 5 hektar torpaq sahəsində yayılmış bağı 1828-ci öyrəndiyimiz kimi, o İran Azərbaycanında şiələrin dini lideri – müctəhidi imiş. Məhz onun ruhani adından da bağın adı meydana gəlmişdir – Müctəhid. Onun gürcü arvadı məhz bu parkda dəfn edilmişdir. 1845-ci ildə Mir Fəttah Ağa Təbrizlidən bağı varlı həmvətənlisinə satmışdır, Fəttah Ağa özü isə Tbilisini tərk etmişdir.

İpək stansiyası yaradılmışdır. Stansiyanın kompleksi, hansının ki, bizə dağılmış xarabalıqları gəlib çatmışdır, 1892-ci ildə tikilmişdir. Kompleksin baş tikilisi hələlik salamatdır, harada ki, “İpək evi” ipəkçilik muzeyi, kitabxana və ipəkçiliyin əlaqələndirmə mərkəzi yerləşmişdir. 1853-cü ildən bağ xəzinə mülkiyyətinə çevrilmişdir. Burada hər gün xalq gəzintiləri təşkil olunur, sərgilər və ya tamaşalar göstərilirdi. Müctəhid bağı Tiflis sakinlərinin toplaşdıqları, əyləndikləri və istirahət etdikləri yerə çevrildi. 1887-ci ildə bağın ərazisində Nikoloz Şavrovun rəhbərliyi altında Qafqaz İpək stansiyası yaradıldı. Stansiyanın kompleksi, hansı ki, bizə qədər dağılmış şəkildə gəlib çatmışdır, 1892-ci ildə tikilmişdir. Kompleksin əsas tikilisi qalmışdır, burada “İpək evi” ipəkçilərin muzeyi kitabxana və ipəkçiliyin əlaqələndirmə mərkəzi yerləşmişdir. 1935-ci ildə Müctəhid bağında dünyada ilk uşaq dəmiryolu açılmışdır. Bağda teatr, açıq estrada, kafe-restoran, uşaqlar üçün dəmiryoldan başqa, müxtəlif attraksionlar fəaliyyət göstərirdi. Bu gün istənilən yaş qrupuna mənsub insan bağda dincələ və əylənə bilər.

Gürcü etnoqrafiya məktəbinin banisi, akademik Giorgi Çitayanın təşəbbüsü və rəhbərliyi altında, 1966-cı ildə Qafqazda ilk etnoqrafiq muzey yaradıldı ki, sonradan bu Gürcü memarlığı və məişəti Dövlət muzeyi adlandırıldı.

Etnoqrafiya muzeyi Gürcüstanın miniatür modelini təmsil edir və onun rəngarəng etnik -mədəniyyətini əks etdirir. Muzeyin ərazisi 52 hektarı əhatə edir və 11 zonaya ayrılmışdır. Muzeyin baş planının müəllifi Longinoz Sumbadzedir. Xalq memarlığı və məişəti üçün xarakterik olan obyektlər 10 tarixi – etnoqrafiq zonada sərgilənir. Muzeydə Gürcüstanın müxtəlif regionlarından 70-dək yaşayış evi və təsərrüfat tikilisi təqdim olunur: Kartli, Kaxeti, Samsxe – Cavaxeti, İmereti, Quria, Sameqrelo, Acarıstan, Abxaziya, Raca-Leçxumi və Svaneti. Zonalardan biri tarixi-arxeoloji abidələrə ayrılmışdır ki, bunların da arasında Abxaziyadan V-VI əsrlərin Sioni Bazilikası – b.e.ə II minilliyin məqbərəsi (Dolmen) və qəbir daşlarının zəngin kolleksiyası vardır.

1920-ci ildə Dimitri Şevardnadzenin təşəbbüsü ilə Tiflisdə **Mili Qalereya** yaradıldı. O zamankı ictimaiyyət bu faktı elə bir ruh yüksəkliyi ilə qarşıladı ki, bu da Qalereyanın sonrakı taleyini müəyyənləşdirdi. İctimaiyyət tərəfindən büruzə verilən maraq, tərəfkeşlik göstərmək və qalereyanın əməkdaşlarının əzmkarlığı nəticəsində Milli Qalereya əhəmiyyətli ocaqlardan birinə çevrildi, harada ki, gürcü mədəniyyət abidələrinin toplanmasına başlanıldı.

1932-ci ildə respublika hökumətinin qərarı ilə Milli Qalereyanın yenidən təşkili baş verdi və onun bazasında təsviri incəsənət muzeyi yaradıldı, burada Gürcüstan Tarix- Etnoqrafiya və Gürcülər Arasında

Yazıb Oxumağı Yayan Cəmiyyətlərin, eləcə də Tbilisi universitetinin qədim gürcü incəsənət kolleksiyaları toplanıldı.

1933-cü ildə muzey üçün Metexi məbədinin ətrafındakı ərazidə bina ayrıldı, buna görə də sonrakı illərdə o “Metexa” incəsənət muzeyi kimi xatırlandırılırdı. Muzeyin birinci direktoru Dimitri Şeverdnadze idi.

1945-ci ildə Ekvtime Tağaişvilinin xidməti sayəsində 1921-ci ildə Menşevik hökuməti tərəfindən Fransaya aparılmış Milli xəzinə Gürcüstana qaytarıldı, bu xəzinənin böyük bir hissəsi İncəsənət muzeyinə verildi.

1950-ci ildən muzey Dövlət incəsənət muzeyi adlandırılır, elə həmin il ona bina verilir, muzey hal-hazırda belə həmin binada yerləşir. Bu Rus Ampiri üslubunda tikilmiş binadır, hansı ki, 1838-ci ildə tikilmişdir və onda uzun müddət ərzində ruhani seminariyası yerləşdirilmişdi.

Muzeyin xəzinəsində gürcü döymə və rəngli ikonaları, şüşə arakəsmələr, zərgərlik əşyaların bədii tikiş və haşiyələnmənin unikal nümunələri sərgilənir. Qədim gürcü divar rəssamlığı, gürcü rəssamlarının şedevrləri, rus, Avropa və şərq ölkələrinin incəsənət abidələri tamaşaçıların diqqətini cəlb edir.

**Azadlıq meydanı** özünün mövcud olduğu vaxt ərzində adını bir neçə dəfə dəyişmişdir. Lap əvvəlcədən meydanın adı Ştab meydanı adlanırdı. 1825-ci ildən Zaqafqaziya qoşunları sərkərdəsi, 1827-ci ildən isə Qafqaz canişini general Paskeviç burada əyləşirdi. 1828- 1829-cu illərin Rusiya-Osmanlı müharibəsində Paskeviç türklərin Çoxsaylı ordusunu qəddarcasına məğlubiyyətə uğratdı və ondan işğal etdiyi gürcü ərazilərini- Axalsıxı və Axırkələyi geri qaytardı, eləcə də ermənilərin paytaxtı İrəvandan türkləri qovdu.

1828-ci ildə Rus generalı Paskeviçə İrəvan qala-istehkamını almağa görə İrəvan qrafı – Paskeviç – İrəvanski adı verildi. 1851-ci ildə meydanda teatr və karvansara tikintisi başa çatdırıldı, buna görə meydanı bir müddət Teatr meydanı adlandırırdılar. 1856-cı ildə Paskeviç vəfat edən zaman, ona hörmət əlaməti olaraq meydana Tiflisdə keçmiş çar canişini – Qraf Paskeviç – İrəvanski adı verildi. Bundan sonra, uzun müddət ərzində, bu meydan Tbilisidə qısaldılmış şəkildə İrəvanski meydanı adlandırılırdı. Daha sonralar isə, Sovet Hakimiyyəti dövründə İrəvan meydanı adı daha da möhkəmləndirildi. 1918-ci ildə Gürcüstanın müstəqilliyini qeyd etmək üçün meydanın adı dəyişdirildi və Azadlıq meydanı adlandırıldı. Gürcüstan Sovetləşdirildikdən sonra əvvəlcə ona Zaqfederasiya meydanı (Zaqafqaziya meydanı) adı, Zaqafqaziya SFSR yaradılmasına görə, sonra isə – Lenin meydanı adı verildi. Gürcüstanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra, Prezident Zviad Qamsaxurdiyanın təşəbbüsü ilə meydana köhnə adı – Azadlıq meydanı adı qaytarıldı.

Tbilisinin əsas meydanı olan bu meydanın iki əsrlik tarixi vardır. Meydan o qədərdə uzaq olmayan keçmişdə şəhər divarından kənarda qalmış insan yaşamayan yer imiş, çarların bağları ilə və əncir ağacları və Şiraz qızılgülləri ilə bəzədilmiş sahə imiş.

Hasarın divarları təqribən bugünkü meydanın şərq tərəfinin tikililərinə gedib çatır (bir qədər dərinlikdə və Puşkin küçəsinin yenidən qurulmasını tələb edirdi. Orada isə, harada ki, bu gün Leselidze küçəsi meydana qarışır, şəhərin əsas qapılarından biri olan Qocori qapısı idi. Buradan 2 yol başlanırdı. Biri şimala doğru istiqamətlənirdi (bugünkü Rustaveli prospektinin xəttinə), ikincisi isə bugünkü Leonidze küçəsindən keçərək Qocoriyə doğru gedirdi.

XIX əsrin tanınmış gürcü tarixçisi – Platon İoselianinin verdiyi məlumata görə, bugünkü meydanın şimal tərəfində, təqribən orada, harada ki, indi İncəsənət muzeyidir, XVII əsrin sonlarında çarın karvansarası yerləşirmiş. O kifayət qədər iri imiş və səksənə qədər yeri əhatə edirmiş. Elə onun məlumatına görə, karvansaranı 1724-cü ildə baş vermiş basqın zamanı türklər dağıtmışlar. Vaxuştinin və XVIII əsrin

80-ci illərdə tərtib olunmuş Tbilisinin planlarında meydanın ərazisi cənubdan və şimaldan bağlar ilə əhatə olunubmuş. Vaxuştiyə əsasən, burada çarın, onun xanımının və kəndxudanın bağları var imiş, Pişçeviçin 1785-ci il planına görə, çarın və onun xanımının bağlarından başqa, Giorgi Batonişvilinin bağı da salınmışdır. Vaxuşti Batonişvilinin bu yerlərdə yeganə tikili olduğunu göstərir, bu tikilini o Bejanın karvansarası adlandırır. O,şəhərin özünüidarəetmə binasının yerində yerləşir.

Geniş düzəngahı Sololaki dərəsi (sonralar Avanantların dərəsi) kəsirmiş. Dərədən Sololaki aşırımı yamaclarından gələn sel suları Kürə doğru axıb gedirmiş. Bu dərə çox dərin və enli dərə imiş.

İrəvanskı meydanında dərənin mövcud olduğu dövrdə meydan praktiki olaraq ikiyə bölünmüşdür. Daha doğrusu isə meydan real olaraq 1824-1825-ci illərdə tikilmiş “Xalq evi” (sonralar “Qafqaz korpusunun qərargahı”) qarşısında (bugünkü Puşkin bağçasının ərazisində) formalaşmışdır. O üç tərəfdən tikintilərlə əhatə olunmuşdu, cənubdan isə dərə ilə sərhədlənirdi, hansı ki, sonralar Teatr binası buraya daxil oldu. Bunun nəticəsində teatr və şəhər polisi tikililəri arasında yeni meydan yarandı, hansını ki, məhz düzgün olaraq “Teatr” meydanı adlandırırdılar. Artıq 1934-cü ildə, yanmış teatrın binası götürülən zaman, meydan birləşdirildi və orada urbanik məkan yarandı, hansı ki, bu gün Azadlıq meydanı adlanır.

1847-1851-ci illərdə Sololaki dərəsinin bir hissəsi örtüldü (Leonidze küçəsi və meydanı). Bu elə həmin illərdə meydanda teatr və karvansaranın monumental tikilisinin ucaldılması ilə əlaqədar idi (İtaliya klassisizmi; memar Covanni Skudyer). İrəvan meydanının altından suyun ötürülməsi üçün çox böyük həcmli deşik açdılar. Bir nəfər müasir insanın xatirələrinə görə, bir dəfə həmin deşiyə at ilə birlikdə araba düşür və Muxran Batonun salı yanında üzə çıxmışdı.

1850-ci ildə çıxan “Qafqaz” qəzetində oxuyuruq: “iyulun 26-da, günorta çağı saat 5-də Tbilisidə selləmə yağış gəldi, su Sololakidə inəyi qarşısına aldı, İrəvan meydanının altından çəkilmiş nəhəng deşiklə apardı və Muxran dərəsinə aparıb çıxartdı”. Bu dərə Sololaki boğazından (Amağleba kilsəsinin ayağı, hazırda Davitaşvili küçəsi), Qudoviç (Conkadze), Rtişeviç (Caparidze), Paskeviç (Maxaradze), Sergeyev (Maçabeli) ad qoyulmamış küçələri kəsib keçirdi, İrəvan meydanına doğru uzanırdı və Kürdə Muxran (Barataşvili) körpüsünün altından Kürə qovuşurdu.

XIX əsrin 30-cu illərində İrəvanski meydanının mərkəzində odun satmaq üçün arabaların dayandığı yer var idi, bazar günləri isə böyük və hay-haraylı yarmarka təşkil olunurdu. Burada nə satılmırdı: göy-göyərti və paltar, mebel və dördayaqlı heyvan, çuxa və müdir, odun və ot, Qaramaniyanın portretləri və hətta bukinistik kitablar.

Puşkin küçəsində qədimdə çayxanalar və xırda para dükanları hökmranlıq edirdi, burada qumar və başqa azad oyunlar geniş yayılmışdı. Küçələrdə sazəndə azad şəkildə şəhər sakinlərinə mahnılar oxuyurdu.

1847-ci ildə Vorontsovun əmri ilə Tamamşev meydanda teatr və karvansara tikən zaman, bazarı bir qədər aşağı apardılar, məhz oraya, harada ki, indi Puşkin bağçasıdır. Bazar camaatını cəlb etmək və əyləndirmək üçün oyunbazlıqlar yaradılmışdı. Burada ucuz qiymətli sirk artistləri oynayırdılar (P. Umikaşvili, İveria, 1899-cu il). Bir tərəfdə kəndirbaz ip üzərinə çıxırdı, o biri tərəfdə tanınmış Abel balaca dayanacaqda dururdu və camaatı güldürürdü. Bu məhəllənin hay-küyü və izdihamı əskik olmurdu. Gündüz yarmarka keçirilirdi, gecə – sirk oynanılırdı. Polis, hansı ki, orduda olmuş əlillərdən ibarət idi, şəhərdə qaydanı qorumaq üçün heç qulağını da şeşələmirdi. İrəvan meydanı tamamilə təmizlənməyən və diqqətsiz qalmış sahə idi. Qəribə bazar çirkabla, palçıqla keçilməz olurdu. Daş döşəmələr bir qədər sonra meydana çıxdı. Sınıq-sınıq çuxurlu daşlar elə pis vəziyyətdə tökülüb ətrafa səpələnmişdi ki, insanlar onların üzərindən çətinliklə keçə bilirdi.

İrəvan meydanının bu bazarı 1885-ciilədək fəaliyyət göstərirdi. 1885-ci il yanvarın 23-dən bazar Veraya köçürüldü. Kazaklar ticarətlə məşğul olanları zor-güclə oraya qovurdular. Arabalar, povoskalar Veraya qovuldu. Yumurta, toyuq və göy-göyərti satanlar da onların cərgəsinə qatıldı. "Sololakidə yaşayanların bir bərni qatıq alması üçün Veraya getməsi lazım gəlirdi", yazırdı dövrün qəzeti.

Bazarın yerində bağ salındı, onun ilkin adını camaat yeni bağ adlandırdı. 1892-ci il mayın 25-də İrəvanski meydanının yeni bağında gürcü ictimaiyyətinin ianə vəsaiti hesabına Puşkinin bürüncdən büstü qoyuldu. (heykəltəraş R. Xutoroviç), bundan sonra isə o Puşkin bağı adlandırıldı. Seminariya şagirdləri bu bağın tez-tez qonaqları olurdular, hansılar ki, sərbəst vaxtlarını burada keçirərək poeziya, siyasət barədə söhbətlər aparırdılar. Meydanının intensiv qurulması XIX əsrin 1-ci rübündə başlanmışdır. Meydanın bugünkü tikililəri, bir tikilidən başqa, XIX əsrdə formalaşdı və üslub cəhətcə olduqca qarmaqarışıq görünüş yaradır.

1824-1825-ci illərdə şəhər evi (sonralar Qafqaz korpusunun qərargahı) tikilmişdir. 1825-ci ildə Yakob Zubalaşvili tərəfindən hər kimsə Turkestanişvilidən satın alınmış torpaq sahəsində "Palasi" mehmanxanası tikilmişdir. 1838-ci ildə bina ruhani seminariyasını yerləşdirmək üçün kilsə idarəsi tərəfindən satın alınmışdır.

1830-cu illərdə meydanın cənub hissəsində, orada, harada ki, əvvəllər Bejanın karvansarası var idi, şəhər polis idarəsinin binası tikildi (keçmiş meriya), polismeyster dəftərxanası ilə birlikdə.

1851-ci ildə İrəvanski meydanında, şəhər polisi qarşısında fəvvarə yaradıldı. Su Sololaki bulaqlarından çəkilmişdi. 1878-1879-cu illərdə polis binası əsaslı surətdə yeniləndi və buraya Hökumət evi köçdü. 1921-ci ildən həmin binada xalq deputatlarının Tbilisi şəhər şurası yerləşdi, Gürcüstan müstəqillik əldə etdikdən sonra isə-Tbilisi meriyası.

Teatr-karvansara binasının qarşısında, giriş hissəsində dəmirdən şirlər qoydular (indi bu şirləri Sioninin mərkəzi girişinin yaxınlığında, karvansaranın qarşısında görə bilərsiniz). 1874-cü ildə baş vermiş yanğından sonra yalnız karvansaranı bərpa etdilər. Gürcüstan sovetləşdirildikdən sonra, 1930-cu illərdə, meydanın tamamilə yenidən qurulması keçirildi, bu da karvansara binasının (1934-ci il ) tamamilə dağıdılması ilə nəticələndi. 1956-cı il aprelin 21-də V.İ. Leninin heykəli təntənəli şəkildə açıldı (heykəltəraş V. Topuridze, U. Caparidzenin iştirakı ilə, memarlar: Q. Melkadze, K.Çxeidze, K. Xeçinaşvili, Ş. Qavlaşvili). Heykəl 1991-ci ildə parad şəkilində xalqın iştirakı ilə uçuruldu. Onun yerini bir qədər sonra fəvvarə tutdu. 1967-ci ildə meydanın altında həmin adda metro stansiyası fəaliyyətə başladı.

Meydanın qarşı tərəfində, divar boyunca bir-iki mərtəbəli evlər tikildi, o dövrkü Tiflis üçün xarakterik olan şəbəkəli eyvanlarla, hansının ki, gözəl naxışlarla, ornamentlərlə bəzədilmiş məhəccərləri və Timpanları var idi. Bu cür evlərdən birində, harada ki, keçmiş Dostluq muzeyinin yerində ucaldılmışdı, 1829-cu ildə bu evdə Aleksandr Puşkin dayanmışdı. Bu evləri XIX əsrin 2-ci yarısında başqa tikililər əvəz etdir, hansıların ki, böyük hissəsi bu günə qədər gəlib çatmışdır.

Meydanın tən ortasında 1956-cı il aprelin 21-də Lenin meydanında Leninin monumenti qoyuldu.

1991-1992-ci illərin n.d. Tbilisi müharibəsi zamanı, meydanda bir neçə tikili məhv edildi. 1992-ci ildə isə müəllif hüququ qazanmaq üçün memarlıq müsabiqəsi elan olundu- uçmuş kvartalın rekonstruksiyası üçün. Rekonstruksiya 1999-cu ildən 2 yaşayış evinin tikilməsi ilə (Leonidze k. ) və Gürcüstan Milli bankının yeni korpusunun rekonstruksiyası ilə (memar Giorgi Qeqeşidze) həyata keçirildi. Lakin elə həmin il çoxfunksiyalı tikililər üzrə yeni müsabiqə elan olundu, bilavasitə meydanın ətrafındakı tikililər üzrə. Bunun nəticəsində 2002-ci ildə meydanda yeni mehmanxana "Kortyard Marriot" açıldı.

2006-cı il noyabrın 23-də meydanda sütun üzərində ucaldılmış Müqəddəs Giorginin heykəli (hansı ki, Zurab Seretelinin şəhərə hədiyyəsidir) açıldı. 27 tonluq 9 metr uzunluğunda heykələ iki kiloqram qızıl xərclənmişdir.

**Parlamentin binasının** yerində əvvəllər məbəd var idi. Pravoslav xristian kafedral məbədi Şimali Qafqazın dağ xalqları üzərində Rusiyanın çaldığı qələbənin rəmzi kimi tikilmişdi və Rus müqəddəsi Aleksandr Nevelin adını daşıyırdı. Tikinti 1871-ci ildə başlandı, lakin maliyyə problemləri üzündən tezcə də dayandırıldı. Tikinti sonralar bərpa olundu və 1897-ci ildə artıq hazır məbəd təntənəli şəraitdə xeyir-dualandı. Məbəd neçə illər idi ki, fəaliyyət göstərirdi və onun daimi rahibləri də var idi. 1921-ci ilin fevral ayında məbədin həyətində Gürcüstan Hərbi məktəbinin tələbələrini, n.d., yunkerlərini dəfn etdilər, hansılar ki, 11-ci qızıl ordu ilə döyüşdə həlak oldular.

Sovet Gürcüstanı hökümətin qərar ilə Tbilisi hökumətinin sarayını tikməyi qərara aldıqda, onun tikilməsi yerini şəhərin baş magistralı, Nevel məbədinin tikildiyi yer seçildi və 1930-cu il fevralın 7-də hakimiyyət məbədin demontajına başladı.

Ondan sonra, nə zaman ki, 1930-cu ildə Parlamentin binasının tikilməsi ideyası meydana çıxdı, 1932-ci il tikinti komitəsi yaradıldı və hökumət evinin layihəsi ilə müsabiqə elan olundu. Layihələri müxtəlif yaş qruplarına və təcrübəyə malik memarlar təqdim edirlər və nəhayət, Moskva münsiflər heyətinin qərarı ilə, hansı ki, bu dövrün tanınmış memarları təmsil edirdilər, Viktor Kokorinin və Giorgi Lejavanın layihələri qalib gəldi. 1933-cü il sentyabrın 17-də tikintinin əsasının qoyulmasına təntənəli şəraitdə başlanıldı və onda – bünövrə qoyulma mərasimində hökumət nümayəndələri, memarlar və ictimaiyyətə tanış olan insanlar iştirak etdilər. Tikintinin rəhbəri qismində memarlıq doktoru, professor Siko Poçxerauli təyin olundu.

Tikinti 2 mərhələdə davam etdirilirdi: 1933-1938 və 1946-1953-cü illərdə. Əvvəlcə tikilinin arxa, yəni B korpusu ucaldıldı, sonra ön, A baş korpusu, harada ki, Gürcüstan respublikasının ali orqanları – Ali Sovet və Nazirlər Soveti yerləşməli idi. Tikinti Rustaveli prospektindən (belə adlanırdı o, prospekt yox) 13 metr dərinliyinə enirdi, bu isə onun qavranılmasını asanlaşdırırdı və tikilinin əzəmətinin miqyasını daha nəzərə çarpdırırdı. Ötən əsrin 30-cu illərinin sonunda Rustaveli prospektində tramvay xətləri götürüldü, prospektə asfalt döşəndi və orada trolleybusların gediş-gəlişi başlandı. Tikintinin ikinci mərhələsində Kokorinin və Lejavanın layihələrində memar Vladimir İnasaridze əhəmiyyətli surətdə iştirak etdi və öz düzəlişlərini daxil etdi. Beləliklə, Hökumət sarayı binasının tikilməsi bu üç memarın adı ilə bağlıdır.

Sonralar, 1965-ci ilin payızında, Rustaveli prospekti tərəfində, binanın pilləkəni önündə sütunlar üzərində iki monumental kompozisiya quraşdırıldı. Burada həmçinin terraslar düzəldildi və yaşıllaşdırıldı, sonralar bunları fəvvarələr əvəz etdi.

# FƏSIL 8. DÖVLƏT – BIZIM GÜRCÜSTAN

| Dərsin mövzusu | 8.10. David Ağmaşenebeli |
|---|---|
| **Dərsin məqsədi** | Şagird:<br>David Ağmaşenebelinin mədəni-maarif fəaliyyəti ilə tanış olur.<br>Ölkənin inkişafı üçün ticarətin zəruriliyini təhlil edir və bunu müasir tendensiyalarla müqayisə edir. |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 12 (II) 6 (II) 9 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Bilik xəritəsinin köməyi ilə, ölkənin inkişafı üçün zəruri olan sahələri sadalasınlar. (5 dəq)<br>**Fəallıq 2.** Mətn üzərində iş- cütlüklərdə mövzular üzərində işləyirlər: Davidin dövründə ticarətin inkişafı və David dövründə təhsil. (20 dəq)<br>**Fəallıq 3.** Yerinə yetirilmiş tapşırığın təqdimatı. (10 dəq)<br>**Fəallıq 4.** Reytinqli siyahı tərtib etsinlər- bu gün hansı sahələrin inkişaf etdirilməsi üstünlük təşkil edir və öz seçimlərini əsaslandırsınlar. (5 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə |
| **Sinfin idarəedilməsi** | Ümumi sinif, cütlüklərlə |
| **Resurslar** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Qiymətləndirmə** | Dərslik, yazı taxtası, tabaşir |
| **Əvvəl qazanılmış bilik** | Dördüncü Davidin hərbi və məhkəmə islahatları. |

Reytinqli siyahının tərtibatı zamanı aşağıdakı siyahıdan istifadə edə bilərsiniz.

| Ən əhəmiyyətlisi |
|---|
| |
| |
| |
| |

Nisbətən az əhəmiyyətlisi

| Dərsin mövzusu | 8.11. Birləşmiş Gürcüstanda dövlət idarəçiliyi |
|---|---|
| **Dərsin məqsədi** | Şagird dövləti idarə etməyin köhnə və müasir strukturları ilə tanış olsun və tarixdə şəxsiyyətin rolunu dərk etsin. |
| **MTP uyğunlaşma** | (II) 1 (II) 2 (II) 8 |
| **Dərsin gedişatı** | **Fəallıq 1.** Şagirdlər David Ağmaşenebeli dövründəki dövlətin idarə olunması sxemi ilə tanış olurlar, nə ilə razılaşdıqlarını yazırlar və müəllimin köməyi ilə onların müasir vəzifələrlə uyğunluqlarını müəyyənləşdirirlər. (10 dəq)<br>**Fəallıq 2.** O dövrki Gürcüstanın mərkəzi və yerli idarəetməsi barədə mini mühazirə. (5 dəq)<br>**Fəallıq 3.** Dövlət qulluqçusu necə olmalıdır barədə öz mülahizələrini bildirirlər. Cavablar lövhəyə yazılır. (10 dəq)<br>**Fəallıq 4.** Qrup halında iş zamanı öz hüquq və öhdəliklərinin siyahısını işləyib hazırlasınlar və sinfə təqdim etsinlər. (10 dəq)<br>**Fəallıq 5.** Qiymətləndirmə. (5 dəq)<br>**Fəallıq 6.** Ev tapşırığı – mövzu yazsınlar: vətəndaşa dövlətdən və dövlətdən vətəndaşa nə lazımdır. |
| **Sinfin idarəedilməsi** | Qrup işi, ümumi sinif |
| **Resurslar** | Qrup işi,ümumi sinif |
| **Qiymətləndirmə** | Cari tapşırıqların qiymətləndirilməsi rubrikası |
| **Əvvəl qazanılmış bilik** | Gürcü çarlığının idarə olunması strukturu |

Birinci fəallıq üçün cədvəl

| Vəzir | Müasir vəzifə |
|---|---|
| Kitab əhlinin ağsaqqalı- Çxondideli | Baş nazir |
| Mandaturtuxusesi | Daxili işlər naziri |
| Amirspasalar | Müdafiə naziri |
| Mecurculetuxusesi | Maliyə naziri |

## Əlavə məlumat

**Hərbi islahatlar,** XIX əsrin birinci rübündə Gürcüstanda, David Ağmaşenebeli tərəfindən keçirilmiş tədbirlər kompleksi, hansının ki, məqsədi Gürcüstan qoşununun məşqləri – təşkil edilməsini nəzərdə tuturdu və döyüş əməliyyatlarının taktikası və strategiyasının yenidən qurulmasını – yaxşılaşdırılmasını qarşısına məqsəd qoymuşdu. David Ağmaşenebeli orduda  kəskin hərbi intizam tətbiq etmişdi. Qoşunun yaxşı məşq etməsinə xüsusi diqqət verilirdi, bu məqsədlə o mövcud olan qaydalara nəzərə çarpacaq dəyişikliklər daxil etdi. Əməliyyatların sürətləndirilməsi üçün piyada qoşunu atlılar dəstəsi əvəz etdi. Düşmənin hücumları və ona qəflətən hücum üsullarından geniş istifadə olundu. Kəşfiyyatçıların (qasidlərin) geniş şəbəkəsi Gürcüstan qoşununun sürətli manevr etməsinin əhəmiyyətli xüsusiyyətlərindən biri idi və bu qabiliyyət onun gücünü artırırdı. Davidin tikdirdiyi körpülər və qaydaya salınmış yollar gürcü ordusunun döyüş qabiliyyətini artırırdı. Öndə gedənlərin qabiliyyətinə xüsusi diqqət yetirilirdi, onlara düşmənlə birinci vuruşmaq həvalə olunurdu. David Ağmaşenebelinin özü “bənzərsiz sərkərdə və öndə döyüşən” insan imiş. Gürcüstanda daimi fəaliyyət göstərən ordu yaratmaq üçün qıpçaqların Gürcüstana köçürülməsinin böyük əhəmiyyəti var idi. 1118-1120-ci illərdə Gürcüstana 40 min seçilmiş qıpçaq ailəsi köçürülməsinin qayğısına qalındı və bu qıpçaqlar özlərinin yaraq-yasaqları və atları ilə birlikdə gəlmişdilər və yaxşı təlim görmüşdülər. Qıpçaqların Gürcüstan feodal hökumətinə münasibətdə yalnız hərbi xidmət göstərmək öhdəliyi var idi, beləliklə onlar nizami ordunu təmsil edirdilər. Lazım gəldikdə çar “özünün çarlıq mühafizəçilərini, seçilmişləri və atlı- yaxşı yəhərlənmiş insanları və döyüş meydalarında şücaət göstərənləri ehtiyatda saxlayırdı” və bu dəstələrdən ən həlledici anlarda istifadə edirdi.

Müasir Gürcüstanın tarixində 1990-cı il dekabrın 20-də milli qvardiyanın yaradılması əhəmiyyətli hadisə idi. 1991-ci il aprelin 30-da Gürcüstanda birinci yaz çağırışı rəsmi sürətdə elan olundu. Gürcü ordusu günü məhz aprelin 30-u elan olundu.

Gürcü silahlı qüvvələrində əhəmiyyətli islahatlar 2003-cü ildən sonra başlandı. Hərbi büdcə böyüyürdü. Gürcüstan təlim və silahlanma proqramına qoşuldu. Gürcü ordusunun NATO standartlarına müvafiq hazırlıq səviyyəsinə gətirilməsi planlaşdırıldı.

**Davati stellajı** – gürcü kult – memorial abidəsi. Duşeti bələdiyyəsindəki, Davati kəndində Jinvali arxeoloji ekspedisiyasının kəşfiyyatçılar qrupu tərəfindən 1980-ci ildə, Araqvi çayının sol qolunda, Abanosxevi qolunun mənbəyində VIII-IX əsrlərində Məryəm ana kilsəsinin interyerində tapılmışdır. O müxtəlif analoji stellajların hissələri ilə birlikdə inşaatçılar tərəfindən bəzənmək məqsədi ilə istifadə olunmuşdur – qayıqların istiqamətləndirmə bürclərinin künclərində bəzəmə məqsədi ilə tikilmişdi.

Jinvali Arxeoloji ekspedisiyası 1984-cü ildə stellajların hissələrini bürcdən götürdü.

Oradan ayrılmış stellajlar hazırda Gürcüstan milli muzeyinin Simon Canaşia adına Gürcüstan muzeyində saxlanılır.

Stellajlardan biri gürcü alimləri üçün xüsusi ilə əhəmiyyətlidir, hansının ki, bir hissəsinə belə bir tip təsvir çəkilmişdir: iki baş mələk – Mikayıl və Cəbrayıl əllərində perqament tutmuşlar, hansı ki, cızma şəkilində gürcü asomtavruli əlifbası ilə yerinə yetirilmişdir. Bu ilk əlifbadır ki, bizə qədər gəlib çatmışdır. Alimlərin fikrincə, Davati Stellajı IV əsrdə yerinə yetirilmişdir, təqribən 367-ci ildə əgər fikir versəniz, orada aşağıdakı hərfləri görərsiniz. ვ, ტ, ჟ

Ramin Ramişvilinin fikrincə, bu 5000+300+20=5320 aşağıdakı, müvafiq rəqəmlərdən başqa bir şey deyildir. Gürcü yazısının yaradılması tarixi kimi b.e. 284-cü ili hesab edirlər, yəni İncilə əsasən ölkənin yaradılmasından İsa məsihin doğulmasına qədər isə 5604 il hesablanır. Davatinin Stellajında qeyd edilən rəqəm 5320 5604-284=5320 – dən başqa bir şey deyildir.

İlkin **feodal Gürcüstanda "bçe" və "msaculi" hakim demək idi.** Lakin bəzi tarixi mənbələrə əsasən, hakimin bu termini ilə antik dövrdə də xatırlanılır. Orta əsrlərdə çar həddindən artıq əhəmiyyətli işləri müzakirə edirdi. Çarın səlahiyyətlərinə elə işləri müzakirə etmək daxil idi ki, bunlar məsələn, adın əlindən alınması, çar xəzinəsinin sındırılması və yaxud çarlara ikiüzlülük etməkdən ibarət idi. Lazım gəldikdə çar məclis də çağırırdı. Elə də olurdu ki, çar həcmli işlərin müzakirəsini hansısa şahzadəyə həvalə edirdi.

David Ağmaşenebelinin dövründə Ali məhkəmə "Saaco kari" adlandırılırdı və kitab əhli ağsaqqalına – Çxondideliyə tabe idi.

II İraklinin çarlığı dövründə, məhkəmənin yenidən təşkili baş verdi və divan bəyləri məhkəməsi yaradıldı. Bu struktur İmereti çarlığında, Quriyada və Sameqreloda da qüvvədə idi.

XIX əsrdə Rusiya imperatoru II Aleksandr tərəfindən keçirilmiş məhkəmə islahatı Gürcüstana da adi oldu, yeni barışdırıcı şöbələr barışdırıcı hakimlərlə birgə, şəhər məhkəmələri və məhkəmə palatası yaradıldı.

Son illərdə keçirilmiş məhkəmə islahatları əsasında müasir tipli məhkəmə sistemi formalaşdırılmışdır, hansı ki, bu sistem üç pillədən ibarətdir. Birinci instansiya məhkəməsi rayon və şəhər məhkəmələrini əhatə edir. İkinci instansiya – yəni Apelyasiya məhkəməsi və üçüncü instansiya kasasiya (Ali) məhkəmə, hansının ki, çıxardığı hökm axırıncıdır.

Hakimin masası üzərində hüquq mühafizənin rəmzlərindən biri – çəkic durur. Bundan başqa məhkəmənin əsas atriburtlarından biri mantiyadır. Müxtəlif instansiyaların hakimləri müxtəlif rəngli mantiyalarla bəzənirlər. Məs.: birinci instansiya hakimi – zoğalı rəngli mantiya ilə salona daxil olur, Apelyasiya məhkəməsinin hakimi – yaşıl rəngdə, Ali məhkəmənin hakimi – Qara rəngdə.

# 11. YEKUN TAPŞIRIĞI – NƏ BILIRƏM VƏ NƏ BACARARAM

**Fəsil 1. Kaxeti. Yekun tapşırığı nə bilirəm və nə bacararam**

Yekun işi bir neçə tip tapşırığı əhatə edir ki, bunlarında əsas məqsədi şagirdlərin şərabçılığın inkişafı ənənələrinin və üzüm növləri barəsində məlumat toplamaqdan, ənənəvi sahənin inkişaf etdirilməsi perspektivlərini dərk etməkdən, özünün qoşulması ilə üzüm növlərinin məşhurlaşmasına qoşulmaqdır.

Fənn standartları nəzərə alınmaqla MTP ilə nail olunası nəticələr İc. El. (II) 3, İc. El. (II) 11, İc. El. (II) 6, İc. El. (II) 7

Təşkil formaları – kiçik qruplar.

Bu işin tapşırıqlarından biri məlumat kitabçası yaratmaqdan ibarətdir, hansı ki, aşağıdakı rubrikadan istifadə etməklə qiymətləndirilə bilər. Tapşırığın maksimum xalı – 10

| Qiymətləndirmə meyarları | Xallar |
|---|---|
